# “İRİ ŞƏHƏRLƏRİN BİRLƏŞMİŞ SU TƏCHİZATI XİDMƏTİ” PUBLİK HÜQUQİ ŞƏXS

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun Hazırlanmış Konsolide edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**
31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 1-3 |
| 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARI: | |
| Konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat | 4 |
| Konsolidə edilmiş mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat | 5 |
| Konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7-8 |
| Konsolidə edilmiş maliyyə hesabatları üzrə qeydlər | 9-54 |

**Müstəqil Auditorun Hesabatı**

"İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ -nin rəhbərliyinə və "Qrup"un idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə:

**Rəy**

Biz "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" Publik Hüquqi Şəxsin ("Qrup") 31 dekabr 2024-cü il tarixinə təqdim edilən konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlirlər, konsolidasiya edilmiş kapitalda dəyişikliklər və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizcə, hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları "Qrup"un 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq düzgün əks etdirir.

**Rəyin bildirilməsi üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin *"Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti"* bölməsində əks etdirilir. Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq "Qrup"dan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və "Qrup"un idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti.**

Rəhbərlik hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, "Qrup"u ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, "Qrup"un öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır."Qrup"un idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslər "Qrup"un maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq konsolidasiya edilmiş maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə konsolidasiya edilmiş maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq konsolidasiya edilmiş maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.
- "Qrup"un daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən "Qrup"un fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti konsolidasiya edilmiş maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər

"Qrup"un fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.

- Konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və konsolidasiya edilmiş maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.
- Konsolidasiya edilmiş maliyyə hesabatları haqqında rəy bildirmək üçün "Qrup"a daxil olan müəssisələrin maliyyə məlumatları və Qrupun biznes fəaliyyəti ilə bağlı kifayət qədər audit sübutlarını əldə edirik. Biz qrup auditinin yönləndirilməsi, nəzarət edilməsi və nəticələrinə görə məsuliyyət daşıyırıq. Biz audit rəyinə görə müstəsna məsuliyyət daşıyırıq.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

03 dekabr 2025-ci il

Bakı, Azərbaycan Respublikası

# "İRİ ŞƏHƏRLƏRİN BİRLƏŞMİŞ SU TƏCHİZATI XİDMƏTİ" PHŞ

**Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat**
31 dekabr 2024-ci il tarixinə
*(Məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Torpaq, tikili və avadanlıqlar | 7 | 958,078 | 1,093,702 |
| Qeyri-maddi aktivlər | 7 | 669 | 371 |
| Aktivdən istifadə hüququ | 8 | 1,100 | 1,386 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **959,847** | **1,095,439** |
| **Cari aktivlər** | | | |
| Mal-material ehtiyatları | 10 | 12,391 | 13,978 |
| Vergilər üzrə debitor borcu | 9 | 14,952 | 14,362 |
| Ticarət və digər debitor borcları | 11 | 20,877 | 27,793 |
| Avans ödənişləri | | - | 411 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 12 | 7,439 | 13,210 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 12 | 308 | 1,654 |
| **Cəmi cari aktivlər** | | **55,967** | **71,408** |
| **Cəmi aktivlər** | | **1,015,814** | **1,166,847** |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Səhm kapitalı | 13 | 2,400,427 | 400,000 |
| Əlavə ödənilmiş kapital | 13 | 2,374,500 | 7,104,078 |
| Dövlət investisiyaları | 14 | 766,498 | 1,216,626 |
| Digər ehtiyatlar | | 47,229 | 47,229 |
| Yığılmış zərər | | (5,053,574) | (8,085,685) |
| **Cəmi kapital** | | **535,080** | **682,248** |
| **Öhdəliklər** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Faiz hesablanan kreditlər və borc öhdəlikləri | 15 | 225,647 | 219,385 |
| İcarə öhdəlikləri | 8 | 435 | 559 |
| Təxirə salınmış gəlirlər | 21 | 1,590 | 1,590 |
| Ehtiyatlar | 16 | 3,575 | 3,118 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **231,247** | **224,652** |
| **Cari öhdəliklər** | | | |
| Faiz hesablanan kreditlər və borc öhdəlikləri | 15 | 16,812 | 22,224 |
| Mənfəət vergisi üzrə kreditor borcu | 17 | 23,382 | 46,454 |
| Ticarət və digər kreditor borcları | 18 | 191,897 | 168,596 |
| İcarə öhdəlikləri | 6 | 720 | 879 |
| Təxirə salınmış gəlirlər | 19 | 14,290 | 14,290 |
| Ehtiyatlar | 16 | 2,386 | 7,504 |
| **Cəmi cari öhdəliklər** | | **249,487** | **259,847** |
| **Cəmi öhdəliklər** | | **480,734** | **484,599** |
| **Cəmi kapital və öhdəliklər** | | **1,015,814** | **1,166,847** |

Cənab Tahir Xəlilov
Sədr vəzifəsini müvəqqəti icra edən

Cənab Yaşar Kəlbiyev
İqtisadiyyat və uçot şöbəsinin müdiri

## "İRİ ŞƏHƏRLƏRİN BİRLƏŞMİŞ SU TƏCHİZATI XİDMƏTİ" PHŞ

**Konsolidasiya edilmiş maliyyə nəticələri haqqında hesabat**
31 dekabr 2024-ci il tarixinə
*(Məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|
| Satışdan gəlirlər | 21 | 297,374 | 304,041 |
| Satışların maya dəyəri | 23 | (129,779) | (161,123) |
| **Ümumi mənfəət** | | **167,595** | **142,918** |
| İnzibati xərclər | 23 | (37,791) | (35,084) |
| Satış və paylama xərcləri | 23 | (149,740) | (162,004) |
| Digər əməliyyat xərcləri | 23 | (170,226) | (172,948) |
| **Əməliyyat zərəri** | | **(190,162)** | **(227,088)** |
| Maliyyə xərci | | (849) | (5,871) |
| İcarə öhdəlikləri üzrə faiz xərci | | (87) | (123) |
| Məzənnə fərqindən xalis (zərər)/gəlir | 23 | 51 | (952) |
| Digər gəlirlər | 22 | 44,186 | 7,856 |
| **Vergidən əvvəl zərər** | | **(146,861)** | **(226,178)** |
| Mənfəət vergisi xərci | 24 | (116) | (115) |
| **İl üzrə zərər** | | **(146,977)** | **(226,293)** |
| İl üzrə digər ümumi gəlir | | – | – |
| **İl üzrə cəmi ümumi zərər** | | **(146,977)** | **(226,293)** |

**Cənab Tahir Xəlilov**
**Sədr vəzifəsini müvəqqəti icra edən**

**Cənab Yaşar Kəlbiyev**
**İqtisadiyyat və uçot şöbəsinin müdiri**

## "İRİ ŞƏHƏRLƏRİN BİRLƏŞMİŞ SU TƏCHİZATI XİDMƏTİ" PHŞ

**Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat**
31 dekabr 2024-ci il tarixinə
*(Məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | Səhm Kapitalı | Əlavə ödənilmiş kapital | Dövlət investisiya-ları | Digər ehtiyatlar | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|---|---|---|---|
| **01 yanvar 2023-cü il tarixinə** | | **400,000** | **7,104,079** | **956,232** | **46,172** | **(7,859,392)** | **647,090** |
| Əlavə ödənilmiş kapitalda artım | | – | - | 260,394 | | – | **260,394** |
| Digər ehtiyatlarda artım | | – | – | – | 1,057 | – | **1,057** |
| İl üzrə zərər | | – | – | – | – | (226,293) | **(226,293)** |
| **31 dekabr 2023-cü il tarixinə** | | **400,000** | **7,104,079** | **1,216,626** | **47,229** | **(8,085,685)** | **682,248** |
| Transferlə əlaqəli düzəlişlər | | - | (2,729,152) | (450 128) | | 3,179,088 | **(191)** |
| Kapitalın maddələri arasında hərəkət | | 2,000,427 | (2,000,427) | – | | – | **-** |
| İl üzrə zərər | | – | – | – | | (146,977) | **(146,977)** |
| **31 dekabr 2024-cü il tarixinə** | | **2,400,427** | **2,374,500** | **766,498** | **47,229** | **(5,053,574)** | **535,080** |

**Cənab Tahir Xəlilov**
**Sədr vəzifəsini müvəqqəti icra edən**

**Cənab Yaşar Kəlbiyev**
**İqtisadiyyat və uçot şöbəsinin müdiri**

**Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat**
31 dekabr 2024-ci il tarixinə
*(Məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2024-cü il tarixində başa çatan il | 31 dekabr 2023-cü il tarixində başa çatan il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti** | | | |
| Vergidən əvvəl zərər | | (146,977) | (226,178) |
| **Vergidən əvvəl zərəri xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirmək məqsədilə aparılmış qeyri-nağd düzəlişlər** | | | |
| Əsas vəsaitlərin köhnəlməsi və amortizasiya | 21 | 33,969 | 37,064 |
| Aktivdən istifadə hüququ üzrə köhnəlmə | 21 | 993 | 765 |
| Ticarət və digər debitor borclarının dəyərsizləşməsində dəyişiklik | 9 | (36,975) | 4,908 |
| Hərəkətsiz mal-material ehtiyatları üzrə dəyərsizləşmə | | 81 | 100 |
| Ehtiyatda dəyişiklik | 14 | (5,118) | (12,741) |
| Maliyyə xərci | | 849 | 5,871 |
| İcarə öhdəliyi üzrə faiz xərci | 6 | 87 | 123 |
| Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin dəyərsizləşməsi | 21 | 170,226 | 172,918 |
| Məzənnə fərqindən (gəlir)/zərər | 21 | 51 | 952 |
| | | **17,187** | **(16,218)** |
| **Dövriyyə vəsaitlərində dəyişikliklər** | | | |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | | 1,346 | (1,181) |
| Mal-material ehtiyatları | | 1,537 | (2,672) |
| Vergilər üzrə debitor borcları | | (590) | (442) |
| Ticarət və digər debitor borcları | | 6,916 | (5,350) |
| Təxirə salınmış gəlirlər | | - | (581) |
| Ticarət və digər kreditor borcları | | 23,301 | (2,633) |
| Avans ödənişi | | 411 | 7,334 |
| Mənfəət vergisi istisna olmaqla vergilər və cərimələr üzrə xalis kreditor borcları | | (23,022) | 1,733 |
| Digər nağdsız əməliyyatlar | | - | (1) |
| | | **27,086** | **20,011** |
| Ödənilmiş mənfəət vergisi | | (116) | (220) |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan/(istifadə edilən) xalis pul vəsaitləri** | | **26,970** | **(20,231)** |
| **İnvestisiya fəaliyyəti** | | | |
| Əsas vəsaitlərin alınması | | (290,629) | (353,992) |
| Qeyri-maddi aktivlərin alınması | | | (3) |

| | | | |
|---|---|---|---|
| **İnvestisiya fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri** | | **(290,629)** | **(353,995)** |
| **Maliyyələşdirmə fəaliyyəti** | | | |
| Ödənilmiş icarə öhdəlikləri | 6 | | (935) |
| Dövlət investisiyaları | | 257,888 | 230,350 |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **257,888** | **229,415** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri üzrə məzənnə fərqindən yaranan gəlir | | | 1 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım/(azalma)** | | **(5,771)** | **(144,812)** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri ilin əvvəlinə** | 10 | **13,210** | **158,022** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri – ilin sonuna** | 10 | **7,439** | **13,210** |

**Cənab Tahir Xəlilov**
**Sədr vəzifəsini müvəqqəti icra edən**

**Cənab Yaşar Kəlbiyev**
**İqtisadiyyat və uçot şöbəsinin müdiri**

## 1. QRUPUN ƏSAS FƏALİYYƏTİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" 30 mart 2023-cü il tarixli 2074 nömrəli fərmanına əsasən, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin əsasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 17 noyabr 2023-cü il tarixli 2356 nömrəli Fərmanın 5.2 bəndinə əsasən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin çevrilmə formasında yenidən təşkili yolu ilə "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxs yaradılmışdır.

"İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ ("Qrup") istehlakçıların məişət (təsərrüfat) - içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini göstərən publik hüquqi şəxsdir. "Qrup" 100% Azərbaycan Respublikası dövlətinə ("Dövlət") məxsusdur.

"İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxs ("Qrup") Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində fəaliyyət göstərir.

Agentlik Azərbaycan Respublikasında suyun mənbədən götürülməsi, emalı, nəqli və təchizatı sahəsində fəaliyyətin təşkilini təmin edən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarını, eləcə də bu sahədə xidmətlər göstərilməsini təşkil edən, balansında olan su təsərrüfatı obyektlərinin texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirən, Azərbaycan Respublikasında yerüstü, yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqini aparan, bu sahələrdə vahid dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

"Qrup"un törəmə müəssisələri 13 saylı Qeyddə göstərilmişdir.

"Qrup"un hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı, AZ1012, Moskva prospekti, 67.

### Əməliyyat mühiti

"Qrup" inkişaf etməkdə olan bazarın xüsusiyyətlərini özündə əks etdirən Azərbaycanın iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquq, vergi və tənzimləyici strukturlar daimi inkişaf edir və bu da biznes mühitində yeni imkanların yaranmasına şərait yaradır. Bu dəyişikliklər Azərbaycanın bazarında fəaliyyət göstərən müəssisələr üçün daha çevik və innovativ həllər tətbiq etməyə imkan verir, həmçinin hüquqi və maliyyə proseslərinin təkmilləşməsinə müsbət təsir göstərir.

2015-2016-cı illərdə Azərbaycan manatının dəyərdən düşməsi biznes mühitində ciddi qeyri-müəyyənliklərə səbəb olmuşdur. Bu səbəbdən hökumət son 9 ildə sabit məzənnəni qorumaq üçün bütün lazımi tədbirləri həyata keçirmişdir. Nəticədə, sonrakı dövrlərdə neftin dünya bazarındakı qeyri-sabit qiyməti yerli valyutaya təsir göstərməmiş, eləcə də biznes mühitində qeyri-müəyyənlik yaranmamışdır.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2024-cü ildə Azərbaycan iqtisadiyyatında əvvəlki illə müqayisədə 4,1 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,3 faiz, qeyri neft-qaz sektorunda isə 6,2 faiz artmışdır.

Dövlər Statistika Komitəsinin məlumatına əsasən 2024-cü ildə ÜDM istehsalının 35,9 faizi sənaye, 10,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,7 faizi tikinti, 5,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə sahələrinin, 19,9 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,8 faizini təşkil etmişdir..

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. "Fitch" və "S&P" Azərbaycan Respublikasının reytinqini "BB+" olaraq qiymətləndirmişdir. "Moody's kredit reytinqini "Ba1" səviyyəsindən "Baa3" səviyyəsinə (investisiya səviyyəsi) yüksəldərək reytinq üzrə proqnozu "müsbət" saxlamışdır.

Azərbaycan Respublikasının gələcək iqtisadi artımı daha çox vergi, hüquqi, tənzimləyici və siyasi hadisələrlə yanaşı, hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və monetar tədbirlərin effektivliyindən asılıdır.

## 2. MALİYYƏ HESABATLARININ HAZIRLANMASININ ƏSASI VƏ MÜHÜM MÜHASİBAT UÇOTU PRİNSİPLƏRİ

### Maliyyə hesabatlarının hazırlanmasının əsası

Qrupun konsolidə edilmiş maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası ("MUBSŞ") tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq hazırlanmışdır. Bu konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilmiş əsas uçot prinsipləri aşağıda təqdim edilir. Bu prinsiplər təqdim edilmiş bütün dövrlərə ardıcıl şəkildə tətbiq edilmişdir.

### Qrupun fasiləsizlik prinsipi üzrə fəaliyyəti və Dövlətlə münasibətlər

Fasiləsizlik prinsipi Qrupun fəaliyyətini yaxın gələcəkdə davam etdirəcəyini, aktivlərini realizə edə biləcəyini və fəaliyyətinin adi gedişində öhdəlik və təəhhüdlərini yerinə yetirə biləcəyini nəzərdə tutur. İnfrastruktur layihələrində əhəmiyyətli cari investisiyalar nəticəsində Qrupun cari öhdəlikləri cari aktivlərindən 31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixlərinə, müvafiq olaraq, 179,684 AZN və 153 244 min AZN çox olmuşdur. Qrup 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə 198 586 min AZN (2023-cü il: 226 293 min AZN) məbləğində xalis zərərə məruz qalmışdır.

Yuxarıda qeyd olunduğu kimi, Qrup tamamilə Azərbaycan Respublikasının dövlət mülkiyyətidir və su təchizatı və kanalizasiya xidmətləri üzrə dövlət inhisarının bir hissəsidir. Azərbaycan Respublikasının hökuməti Qrupun satış və alışları ilə bağlı əməliyyatlarını birbaşa tənzimləyir. Qrupun müəssisələri su və kanalizasiya xidmətinin satışlarına həm aid olduğu fəaliyyət sahəsinə, həm də təbii inhisarlara aid qaydalarla tənzimlənən tarifləri tətbiq edir. Tarixən bu tariflər "xərclər üstəgəl əlavə" sistemi, yəni xidmətlərin maya dəyəri üstəgəl əlavə haqq sisteminə əsaslanır. Bu xərcləri müəyyən edən Azərbaycan Respublikasının Mühasibat Uçotu və Hesabatına dair Qayda və Qanunların ("ARMH") əsasını təşkil edən mühasibat uçotu prinsipləri isə Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") üzrə mühasibat uçotundan əhəmiyyətli dərəcədə fərqlənir. Praktiki olaraq isə, tarif müəyyənləşdirmə qərarları daha çox sosial və siyasi mülahizələri nəzərə almaqla qəbul edilir.

Qrup Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərlərində istehlakçıların məişət (təsərrüfat) – içməli, istehsalat və digər məqsədlər üçün su ilə təminatını həyata keçirir. Həmçinin yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini göstərir. Qrupun fəaliyyəti ilə bağlı tikinti işlərinin təsdiq edilmiş layihə-smeta sənədlərinə uyğun həyata keçirilməsinin təmin olunması Azərbaycan Respublikası Prezidentinin 17 noyabr 2023-cü il tarixli 2356 nömrəli Fərmanı ilə yaradılmış Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti" PHŞ tərəfindən həyata keçirilir. Beləliklə rəhbərlik hesab edir ki, Qrup fəaliyyətin fasiləsizlik prinsipi əsasında aparılmasını təmin etmək iqtidarında olacaqdır.

Maliyyə Nazirliyinin birbaşa subsidiyaları xaric olmaqla, bütün investisiya məbləğləri təsisçi tərəfindən kapital qoyuluşu kimi uçota alınmış və konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabata daxil edilmişdir.

Hökumət Qrupun tam səhmdarı kimi onun sosial yatırımları və ölkə üçün əhəmiyyətini nəzərə alaraq maliyyə dəstəyinin göstərilməsinə davam etməkdə maraqlıdır. Müvafiq olaraq, Qrup özünün konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında fasiləsizlik prinsipini tətbiq edir. Əlavə olaraq nəzərinizə çatdırmaq istərdik ki, Qrupun təşkilati strukturunda edilən dəyişiklik Qrupun fasiləsizlik prinsipinə şübhə doğurmur.

**Konsolidasiya prinsipləri**

Qrupun konsolidə edilmiş maliyyə hesabatlarına "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ və onun törəmə müəssisələrinin 31 dekabr 2024-cü il tarixinə maliyyə hesabatları daxildir. Törəmə müəssisələr, Qrupun onların fəaliyyətindən fayda əldə etmək məqsədilə maliyyə və əməliyyat siyasətlərini idarə etməkdən ibarət olan nəzarət və səsvermə hüquqlarının yarısından çox iştirak payına sahib olan bütün (o cümlədən xüsusi məqsədli) müəssisələrdir.

Xüsusilə, Qrup investisiya obyektinə yalnız və yalnız o halda nəzarət edir ki, Qrup:

- investisiya obyekti üzrə nəzarət hüququna malik olsun (yəni mövcud olan səsvermə hüquqları hazırda investisiya obyektinin müvafiq fəaliyyətini idarə etmək imkanını versin);
- investisiya obyektində iştirakla bağlı risk və ya dəyişən gəlirlər əldə etmək hüququna malik olsun;
- gəlirlərə təsir göstərmək üçün investisiya obyekti üzrə nəzarəti istifadə etmək imkanına malik olsun.

Qrup investisiya obyekti üzrə nəzarət hüququnun olub-olmadığını o halda yenidən qiymətləndirir ki, fakt və şəraitlər üç nəzarət elementindən bir və ya bir neçəsində dəyişiklik əlamətinin olduğunu göstərsin. Törəmə müəssisənin konsolidə edilməsi Qrup törəmə müəssisə üzərində nəzarət əldə edəndə başlayır və Qrup törəmə müəssisə üzrə nəzarəti itirəndə başa çatır. Törəmə müəssisənin il ərzində əldə edilmiş və ya silinmiş aktivləri, öhdəlikləri, gəlir və xərcləri Qrupun onun üzərində nəzarəti əldə etdiyi tarixdən başlayaraq və həmin nəzarətin başa çatdığı tarixə qədər konsolidə edilmiş maliyyə hesabatlarına daxil edilir.

Lazım olduqda, istifadə edilən uçot siyasətinin Qrupun qəbul etdiyi uçot siyasətinə uyğun olması üçün törəmə müəssisələrin maliyyə hesabatlarına düzəlişlər edilir. Qrupun üzvləri arasında olan əməliyyatlarla əlaqədar bütün qrupdaxili aktivlər və öhdəliklər, kapital, gəlir, xərc və pul vəsaitlərinin hərəkəti konsolidasiya zamanı bütünlüklə silinir. Törəmə müəssisənin mülkiyyət payında nəzarətin itirilməsi ilə nəticələnməyən dəyişiklik kapital əməliyyatı kimi uçota alınır.

Qrup törəmə müəssisə üzərində nəzarət hüququnu itirirsə, bu zaman o, əlaqəli aktivlərin (o cümlədən qudvilin), öhdəliklərin, qeyri-nəzarət iştirak payının və kapitalın digər komponentlərinin tanınmasını dayandırır; nəticədə əldə edilən gəlir və ya zərər mənfəət və ya zərərdə tanınır. Qalan investisiyalar ədalətli dəyəri ilə tanınır.

**Cari və uzunmüddətli təsnifat**

Qrup aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifləşdirmələr əasında maliyyə vəziyyəti haqqında hesabatda təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv sayılır:

- Adi əməliyyat dövründə satılması və ya istehlak edilməsi nəzərdə tutulduqda və ya satılması ehtimal edildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində satılması ehtimal edildikdə;
- Hesabat tarixindən ən az 12 ay sonra öhdəliyin ödənilməsi üçün mübadilə edilməsi və ya istifadə edilməsi üçün məhdudlaşdırılması halları istisna olmaqla, pul vəsaitləri və onların ekvivalentləri olduqda.

Digər bütün aktivlər uzunmüddətli aktivlər sayılır.

Öhdəlik aşağıdakı hallarda cari öhdəlik sayılır:

Adi əməliyyat dövrü ərzində ödənilməsi gözlənildikdə;

- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində satılması ehtimal edildikdə;
- Hesabat dövründən sonra ən az 12 ay müddətində öhdəliyin ödənilməsini təxirə salmaq üzrə qeyri-şərtsiz hüquq mövcud olmadıqda.

Qrup bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər olaraq təsnif edir. Təxirə salınmış vergi aktivi və öhdəliyi uzunmüddətli aktiv və öhdəliklər kimi təsnif edilir.

**Müəssisələrin birləşməsi**

Müəssisələrin birləşməsi alış metodunu tətbiq etməklə uçota alınır. Alışın dəyəri alış tarixində ədalətli dəyərlə ölçülən köçürülmüş ödəniş məbləğinin və əldə edilən müəssisədə qeyri-nəzarət payının cəmi kimi ölçülür. Müəssisələrin birləşməsi üçün alıcı əldə edilən müəssisədə qeyri-nəzarət iştirak payını ədalətli dəyərlə, yaxud da əldə edilən müəssisənin müəyyən edilə bilən xalis aktivlərindəki payına proporsional olaraq qiymətləndirir.

Çəkilmiş alış məsrəfləri xərclərə silinir və inzibati xərclərə daxil edilir. Qrup hər hansı müəssisəni satın aldıqda, münasib təsnifləşdirmə və təyin etmə məqsədilə maliyyə aktivlərini və öhdəliklərini müqavilə şərtləri, iqtisadi şərait, alış tarixində mövcud olan digər uyğun şərtlər əsasında qiymətləndirməlidir. Buna əldə edilən müəssisə tərəfindən əlaqədar törəmə alətlərin əsas müqavilədə ayrılması da aid edilir.

Müəssisələrin mərhələlərlə birləşdirilməsi zamanı alıcı müəssisənin satın alınan müəssisədə əvvəllər mövcud olan iştirak payı alış tarixində ədalətli dəyərlə yenidən ölçülür və nəticədə yaranan gəlir və ya zərər müvafiq olaraq mənfəət və ya zərərdə tanınır.

**Ümumi nəzarət altında olan müəssisələrlə birləşmələr**

Ümumi nəzarət altında olan müəssisələrlə birləşmələrə Qrup mühasibat uçotunun alış metodunu tətbiq edir.

**Xarici valyutanın çevrilməsi**

Hazırkı konsolidə edilmiş maliyyə hesabatlarında bütün məbləğlər, xüsusi göstərilmiş hallar istisna olmaqla, min Azərbaycan manatı ("AZN") ilə təqdim edilir.

**İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti PHŞ** və onun törəmə müəssisələrinin funksional valyutası AZN-dir, çünki Qrupun gəlirləri, xərcləri, alınmış mal-material ehtiyatları və öhdəliklərinin əhəmiyyətli hissəsinin qiymətləndirilməsi, çəkilməsi, ödənilməsi və ya digər yolla ölçülməsi AZN ilə həyata keçirilir.

Xarici valyuta ilə aparılmış əməliyyatlar ilkin olaraq əməliyyat tarixində qüvvədə olan müvafiq məzənnələri istifadə etməklə AZN ilə qeydə alınır.

Xarici valyuta ilə olan monetar aktivlər və öhdəliklər hesabat tarixində qüvvədə olan spot dərəcəsi ilə funksional valyutaya çevrilir.

Monetar aktivlərin funksional valyutada təkrar ölçülməsindən irəli gələn məzənnə gəliri və ya zərəri mənfəət və ya zərərdə tanınır.

"İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ xarici valyuta ilə ilkin maya dəyəri çərçivəsində ölçülən qeyri-monetar maddələr ilkin əməliyyatlar tarixinə məzənnədən istifadə etməklə çevrilir. Xarici valyuta ilə olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnə ilə çevrilir. Ədalətli dəyərlə qiymətləndirilmiş qeyri-monetar maddələrin çevrilməsindən yaranan gəlir və ya zərər maddənin ədalətli dəyərində dəyişiklik üzrə gəlir və ya zərərdə tanınmasına uyğun olaraq uçota alınır (yəni gəlir və ya zərərin ədalətli dəyəri digər məcmu gəlirdə ("DMG") və ya mənfəət və ya zərərdə tanınmış maddələr üzrə çevrilmə fərqləri də, müvafiq olaraq, DMG-də və ya mənfəət və ya zərərdə tanınır).

AZN Azərbaycan Respublikasının ərazisindən kənarda sərbəst dönərli valyuta deyil. Azərbaycan Respublikasının hüdudlarında rəsmi məzənnə gündəlik əsasla Azərbaycan Respublikasının Mərkəzi Bankı ("Mərkəzi Bank") tərəfindən müəyyən edilir. Bazar dərəcələri rəsmi dərəcələrdən əsaslı fərqlənmir. Xarici valyuta ilə əməliyyatlar əməliyyat tarixində rəsmi məzənnə ilə qeydə alınır.

Xarici valyuta ilə qalıqların çevrilməsi üçün istifadə olunmuş rəsmi məzənnə dərəcələri aşağıdakı kimi olmuşdur:

| | 31dekabr 2024-cü il | 31dekabr 2023-cü il |
|---|---|---|
| 1 ABŞ dolları/1 AZN | 1.7000 | 1.7000 |
| 1 Avro/1 AZN | 1.7724 | 1.8766 |
| 1 XBH/1 AZN | 2.2170 | 2.2860 |

**Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları**

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş dəyərdə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

*Ədalətli dəyər* ölçmə tarixində bazar iştirakçıları arasında aparılan müntəzəm əməliyyat zamanı aktivin satılması üçün alına bilən və ya öhdəliyi köçürmək üçün ödənilə bilən məbləğdir. Ədalətli dəyər ölçülərkən aktivin satılması və ya öhdəliyin köçürülməsi əməliyyatının aşağıdakı yerlərdən birində aparılması ehtimal edilir:

- Aktivin və ya öhdəliyin əsas bazarı; və ya
- Əsas bazar olmayanda, aktivin və ya öhdəliyin ən əlverişli bazarı.

Qrupun əsas və ya ən əlverişli bazara çıxışı olmalıdır. Aktivin və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçıları aktivi və ya öhdəliyi qiymətləndirərkən istifadə etdikləri fərziyyələri istifadə etməklə ölçülməlidir və bu zaman ehtimal edilməlidir ki, bazar iştirakçıları öz hərəkətlərində ən yaxşı iqtisadi mənafelərini güdürlər. Qeyri-maliyyə aktivinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivi maksimal və ən yaxşı şəkildə istifadə etməklə və ya onu maksimal və ən yaxşı şəkildə istifadə edəcək digər bazar iştirakçısına satmaqla iqtisadi fayda əldə etmək qabiliyyəti nəzərə alınır.

Qrup mövcud şəraitdə münasib olan və ədalətli dəyəri ölçmək üçün kifayət qədər məlumatları olan, müvafiq bazar məlumatlarını maksimal istifadə edən və müşahidə edilməyən məlumatların istifadəsini minimuma endirən qiymətləndirmə üsullarını istifadə edir.

Konsolidə edilmiş maliyyə hesabatlarında ədalətli dəyəri ölçülən və ya təqdim edilən bütün aktivlər və öhdəliklər ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında ədalətli dəyər iyerarxiyasının daxilində aşağıda təsvir olunan kateqoriyalara bölünür:

- 1-ci Səviyyə – Oxşar aktivlər və ya öhdəliklər üçün fəal bazarlarda mövcud olan (təshih edilməmiş) bazar qiymətləri;
- 2-ci Səviyyə – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları birbaşa və ya dolayısı ilə müşahidə edilən qiymətləndirmə üsulları;
- 3-cü Səviyyə – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları müşahidə edilməyən qiymətləndirmə üsulları

Konsolidə edilmiş maliyyə hesabatlarında dövri şəkildə tanınan aktivlər və öhdəliklər üçün Qrup hər hesabat dövrünün sonunda kateqoriyalara bölməni yenidən qiymətləndirərək iyerarxiyanın daxilində səviyyələr arasında köçürmələrin baş verib-vermədiyini müəyyən edir (ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında).

İlkin dəyər alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitləri və ya pul vəsaitləri ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir.

*Amortizasiya olunmuş maya dəyəri (AD)* əsas məbləğin qaytarılmasını çıxmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla maliyyə alətinin ilkin tanındığı məbləğdir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri ayrıca göstərilmir və konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatın müvafiq maddələrinin balans dəyərinə daxil edilir.

*Effektiv faiz dərəcəsi metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində bölüşdürülməsi metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir.

**Maliyyə alətlərinin ilkin tanınması**

Maliyyə aktivi və ya maliyyə öhdəliyi, ilk olaraq ədalətli dəyərdə, həmçinin əldə edilməsinə və buraxılmasına birbaşa aid olan mənfəət və ya zərər, əməliyyat xərcləri ilə ədalətli dəyərdə olmayan predmet üzrə ölçülür. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda yaranan mənfəət və ya zərər qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

Qanunvericilik və ya mövcud bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində alınıb satılması nəzərdə tutulan maliyyə aktivləri ("standart şərtlərlə həyata keçirilən" alış və satışlar) Qrupun maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar müəssisənin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda tanınır.

**Maliyyə alətlərinin təsnifatı**

01 yanvar 2018-ci il tarixindən, ilkin tanımada maliyyə aktivi amortizasiya dəyərində, digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ("DMGVƏD") ölçülmüş dəyərdə və ya mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə ("MZVƏD") təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZVƏD kimi müəyyən edilmədikdə, amortizasiya olunmuş dəyərində ölçülür:

- Maliyyə aktivi müqavilə üzrə pul vəsaitlərinin hərəkətini toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- Maliyyə aktivi müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən (YƏMFÖ) ibarət olan pul vəsaitlərinin hərəkətinə təkan verir.

Maliyyə aktivi (və ya müvafiq hallarda, maliyyə aktivinin bir hissəsi və ya oxşar maliyyə aktivlər qrupunun bir hissəsi) aşağıdakı hallarda uçotdan çıxarılır:

- Maliyyə aktivi həm müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması, həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- Maliyyə aktivi müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul vəsaitlərinin hərəkətinə təkan verir.

Ticarət üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Qrup ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bununla yanaşı, ilkin tanıma zamanı Qrup amortizasiya olunmuş dəyərində və ya DMGVƏD-də ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini MZVƏD kimi təsnif edə bilər, o halda ki, bu, meydana çıxacaq uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

**Maliyyə alətlərinin yenidən təsnifi**

Maliyyə aktivləri Qrupun maliyyə aktivlərini idarə etmək üçün öz biznes modelini dəyişdirdikdən sonra dövr ərzində istisna olmaqla, ilkin tanınmalarından sonra yenidən təsnifləşdirilmir. Yenidən təsnifat perspektiv təsirə malikdir.

**Maliyyə alətlərinin dəyərsizləşməsi – Gözlənilən kredit zərəri (GKZ) üzrə ehtiyat**

Qrup AD və DMGVƏD ilə ölçülmüş borc alətləri və kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələri üzrə EOKZ-ni perspektiv əsasda ölçür. Qrup EOKZ-ni ölçür və hər hesabat dövrünə kredit zərəri üzrə ehtiyatı tanıyır. EOKZ-nin ölçülməsi: (i) mümkün nəticələrin bir sıra qiymətləndirilməsi ilə təyin olunan qərəzsiz və ehtimal olunan məbləğini (ii) pul vəsaitlərinin müddət dəyərini və (iii) keçmiş hadisələr, gələcək şərtlər və gələcək şəraitin proqnozları barədə hər bir hesabat dövrünün sonunda qeyri-adekvat xərc və səy olmadan mövcud olan bütün məqbul və dəstəklənən məlumatları əks etdirir.

AD ilə ölçülmuş borc vəsaitləri EOKZ üzrə ehtiyat çıxılmaqla maliyyə vəziyyəti haqqında hesabatda göstərilir. Kredit öhdəlikləri və maliyyə zəmanətləri üçün EOKZ üzrə ayrı ehtiyat, maliyyə vəziyyəti haqqında hesabatında öhdəlik olaraq tanınır. DMGVƏD-də borc alətləri üçün EOKZ üzrə ehtiyat çıxılmaqla amortizasiya dəyərindəki dəyişiklik mənfəət və ya zərər, digər qalıq dəyərindəki dəyişiklik isə DMG-də gəlirlər, DMGVƏD borc alətləri üzrə zərərlər çıxılmaqla tanınır.

**Dəyərsizləşmədə "Sadələşdirilmiş yanaşma"**

9 saylı MHBS müəssisələrə ticarət debitor borcları, müqavilə aktivləri və lizinq debitor borcları üçün sadələşdirilmiş yanaşma tətbiq etməyə imkan verir. Sadələşdirilmiş yanaşma, müəssisələrə kredit riskinin əhəmiyyətli dərəcədə artımını müəyyənləşdirmədən bütün bu aktivlər üzrə ömürlük gözlənilən zərərləri tanımağa imkan verir. Müəyyən uçot siyasəti seçimlərinə tətbiq olunur:

- Ticarət debitor borcları və əhəmiyyətli bir maliyyələşdirmə komponenti olmayan müqavilə aktivləri üçün ömürlük gözlənilən zərər ehtiyatını tanımaq tələb olunur (yəni müəssisə həmişə sadələşdirilmiş yanaşma tətbiq etməlidir).
- Digər debitor borcları, digər müqavilə aktivləri, əməliyyat lizinqi debitor borcları və maliyyə lizinqi debitor borcları üçün bu, hər bir aktiv növü üçün ayrıca tətbiq oluna bilən uçot siyasəti seçimidir (lakin müəyyən bir növün bütün aktivlərinə aiddir).

**Konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda EOKZ üzrə ehtiyatın təqdim edilməsi**

EOKZ üzrə zərər ehtiyatları konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda aşağıdakı kimi təqdim olunur:

- amortizasiya olunmuş dəyərdə ölçülən maliyyə aktivləri: aktivlərin ümumi qalıq dəyərindən çıxılmaqla;
- kredit öhdəlikləri və maliyyə təminatı müqavilələri: ümumiyyətlə, ehtiyat kimi;

- maliyyə aləti həm çıxarılmış, həm də istifadə edilməmiş komponentdən ibarət olduğu halda və Qrup, kredit öhdəliyi komponenti üzrə EOKZ-ni çıxarılmış komponentdən ayrı olaraq müəyyən edə bilmədiyi halda: Qrup hər iki komponent üzrə birgə zərər ehtiyatı təqdim edir. Birləşdirilmiş məbləğ yerinə yetirilmiş komponentin ümumi qalıq dəyərindən çıxılmaqla təqdim edilir. Çıxarılmış komponentin ümumi məbləği üzrə zərər ehtiyatının hər hansı bir hissəsi ehtiyat kimi təqdim olunur; və
- DMGVƏD-də ölçülən borc alətləri: aktivlərin qalıq məbləği onların ədalətli dəyəri olduğu üçün, heç bir zərər ehtiyatı maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Bununla yanaşı, zərər ehtiyatı ədalətli dəyər ehtiyatının bir hissəsi kimi tanınır.

**Maliyyə aktivlərinin silinməsi**

Qrup bütün praktiki bərpaetmə səylərini tükətdikdə və bərpa etmək üçün ağlabatan bir gözləntinin olmadığı qənaətinə gəldikdə maliyyə aktivləri tamamilə və ya qismən silinir. Silinmələr tanınmanın dayandırılmasını əks etdirir. Qrup, müqaviləyə əsasən ödənilən məbləğləri bərpa etmək istədiyi və bərpa üçün əsaslı gözləntilər olmadığı halda icra fəaliyyətinə məruz qalan maliyyə aktivlərini silə bilər.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Qrup aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır:

(a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda; və ya
(b) Qrup maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Nəzarət qarşı tərəfin öz mülkiyyətində olan aktivi satış üzrə əlavə məhdudiyyətlər qoymadan əlaqəli olmayan üçüncü tərəfə satmaq üçün praktiki imkana malik olmadığı hallarda saxlanılır.

**Maliyyə öhdəlikləri**

**Digər maliyyə öhdəlikləri**

Digər maliyyə öhdəliyinin tanınması, bu öhdəlik üzrə ödənişlər yerinə yetirildikdə, öhdəlik ləğv edildikdə və ya müddəti başa çatdıqda dayandırılır.

Mövcud maliyyə öhdəliyi eyni borc verəndən əhəmiyyətli dərəcədə fərqli şərtlərlə başqa maliyyə öhdəliyi ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirildikdə, belə bir mübadilə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir və müvafiq qalıq dəyərində olan fərq mənfəət və ya zərərdə tanınır.

**Kreditor borcları**

Kreditor borcları təchizatçılardan alınan mal və ya göstərilən xidmət əvəzində ödənilməli olan öhdəliklərdir. Əgər ödəmə öhdəliyi bir il və ya daha az müddətdə yerinə yetirilməlidirsə (yaxud cəmi iş müddətindən artıq deyilsə), kreditor borcları cari öhdəliklər kimi təsnif olunur.

Kreditor borcları effektiv faiz dərəcəsi istifadə edilməklə amortizasiya olunmuş dəyər ilə təqdim edilir.

**Faiz hesablanan kreditlər və borc öhdəlikləri**

Borc götürülmüş vəsaitlər əməliyyat xərcləri çıxılmaqla, ilkin olaraq alınmış məbləğin ədalətli dəyərində qeydə alınır. Əgər əməliyyat qiyməti bazar şərtlərindən kəskin fərqlənirsə, ədalətli dəyər mövcud bazar faiz dərəcəsinə uyğun müəyyən edilir. Sonradan, borc götürülmüş vəsaitlər effektiv gəlir metodu ilə amortizasiya olunmuş maya dəyərində qeydə alınır; alınmış məbləğin ədalətli dəyəri (əməliyyat xərcləri çıxılmaqla) ilə qaytarılacaq məbləğ arasındakı fərq, borcların qüvvədə olduğu müddət ərzində faiz xərci kimi tanınır.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Maliyyə öhdəliklərinin tanınması yalnız və yalnız Qrup öz ödəniş öhdəliyini yerinə yetirdikdə, belə öhdəlik ləğv olunduqda, yaxud müddəti başa çatdıqda dayandırılır. Mövcud maliyyə öhdəliyi tam başqa şərtlərlə eyni kreditorun təqdim etdiyi digər öhdəliklə əvəzlənərsə, yaxud mövcud öhdəliyə əhəmiyyətli düzəlişlər edilərsə, belə əvəzləmə və ya düzəliş ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir. Tanınması dayandırılmış maliyyə öhdəliyinin balans dəyəri ilə öhdəliklər üzrə ödənilmiş və ödəniləcək məbləğlər arasındakı fərq mənfəət və zərər uçotunda tanınır.

**Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi**

Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi realizasiya edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər. Belə əvəzləşdirmə hüququ (a) gələcək hadisələrdən asılı olmamalı və (b) aşağıdakı bütün hallarda hüquqi qüvvəyə malik olmalıdır (i) adi fəaliyyət gedişində (ii) defolt halı olduqda və (iii) ödəniş qabiliyyəti olmadıqda və ya müflisləşmə baş verdikdə.

**Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri**

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə kassada olan nağd pul, bank hesablarındakı tələb edilə bilən depozitlər və ilkin ödəmə müddəti üç ay və ya az olan digər qısamüddətli və yüksək likvidlik dərəcəsinə malik olan investisiyalar daxildir.

**Torpaq, tikili və avadanlıqlar**

Torpaq, tikili və avadanlıqlar yığılmış köhnəlmə və dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, aşağıda göstərilən dəyərlə uçota alınır.

Aktivin ilkin dəyəri onun alış dəyəri və ya tikinti xərcləri, bu aktivin istismara verilməsi ilə birbaşa bağlı olan xərclər, onun silinməsi öhdəliyi (əgər varsa) üzrə ilkin təxminlər və bütün şərtlərə cavab verən aktivlər üçün borc öhdəlikləri üzrə xərclərdən ibarətdir. Maliyyə lizinqi müqaviləsinə əsasən əldə edilmiş aktivlər də torpaq, tikili və avadanlıqlara daxildir.

*Maddi aktivlərin işlənib təkmilləşdirilməsi*

Boru kəmərləri və ötürücü qurğular kimi infrastruktur qurğuların tikilməsi, quraşdırılması və ya tamamlanması xərcləri maddi aktivlərin daxilində xüsusiyyətlərinə uyğun olaraq kapitallaşdırılır. Bütün kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Torpaq, tikili və avadanlıqların əsas hissələrinin və ya komponentlərinin dəyişdirilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr istismardan çıxarılır.

Hər bir hesabat tarixində rəhbərlik torpaq, tikili və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərinin mövcud olub-olmadığını qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa edilə bilən dəyəri təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri, aktivin və ya pul vəsaitlərini yaradan biznes vahidlərinin satış xərcləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Aktivin balans dəyəri onun bərpa dəyərinə qədər azaldılır və dəyərsizləşmə üzrə hər hansı zərər konsolidə edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda qeydə alınır. Dəyərsizləşmə üzrə zərərin daha olmamasına və ya azala biləcəyinə dair əlamətlər olduqda, aktiv və ya pul vəsaitlərini yaradan vahidlər üzrə əvvəlki illərdə qeydə alınmış dəyərsizləşmə zərəri ləğv edilir.

Torpaq, tikili və avadanlıqların satışından yaranan gəlir və ya zərər satışdan əldə olunmuş vəsaitlərin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və ya zərərə daxil edilir.

*Köhnəlmə*

Torpaq, tikili və avadanlıqlar üçün köhnəlmə onların gözlənilən faydalı istifadə müddəti üzrə düz xətt metodu ilə hesablanır.

Qrupun torpaq, tikili və avadanlıqlarının təxmin edilən faydalı istifadə müddəti aşağıda göstərilir:

| | |
|---|---|
| Binalar və tikililər | 20-60 il |
| Obyektlər və ötürücü qurğular | 3-40 il |
| Maşın və avadanlıqlar | 3-15 il |
| Nəqliyyat vasitələri | 3-10 il |
| Ofis avadanlıqları | 3-8 il |

Torpaq və tikintisi tamamlanmamış aktivlər üzrə köhnəlmə hesablanmır.

Torpaq, tikili və avadanlıqların faydalı istifadə müddəti hər il nəzərdən keçirilir və lazım olduqda onların faydalı istifadə müddətindəki dəyişikliklər perspektiv qaydada uçota alınır.

Aktiv artıq köhnəlmiş və istismar müddətinin sonuna çatmış olarsa, Qrupun həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmini məbləğ, satış üzrə təxmini xərclər çıxılmaqla, aktivin qalıq dəyərinə bərabər olur. Əgər Qrup aktivlərini fiziki istismar müddətinin sonuna qədər istifadə etməyi nəzərdə tutursa və ləğv etmə dəyəri əhəmiyyətli deyilsə, aktivin qalıq dəyəri sıfıra bərabər olur. Aktivlərin qalıq dəyəri lazım olduqda hər bir konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatın tarixində nəzərdən keçirilir və təshih edilir.

**Mal-material ehtiyatları**

Mal-material ehtiyatları maya dəyəri və xalis satış dəyəri arasında ən aşağı olan dəyərlə qeydə alınır. Maya dəyəri ilk mədaxil-ilk məxaric metodu ilə müəyyən edilir. Maya dəyərinə birbaşa alış xərcləri, hasilat xərcləri, nəqliyyat və istehsal xərcləri (normal iş həcminə əsasən) daxildir.

**Borclar üzrə məsrəflər**

Borc üzrə məsrəflər yalnız aktivin inkişafı və ya qurulması dövründə çəkildiyi və gələcək iqtisadi fayda gətirəcəyi gözlənildiyi təqdirdə kapitallaşdırıla bilər. Bütün digər borclar üzrə məsrəflər yarandığı dövrdə xərcə silinir.

Borclar üzrə məsrəflər Qrupun vəsaitlərin borc götürülməsi ilə əlaqədar çəkdiyi faiz və digər xərclərdən ibarətdir.

**Qeyri-maddi aktivlər**

Qeyri-maddi aktivlər yığılmış amortizasiyanı və dəyərsizləşmə zərərini çıxmaqla, maya dəyəri ilə qeydə alınır. Qeyri-maddi aktivlərə hüquqlar, lisenziyalar və proqram təminatı daxildir.

Qeyri-maddi aktivlərin istifadə müddəti məhdud və ya qeyri-müəyyən hesab edilir. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər iqtisadi müddəti ərzində amortizasiyaya silinir, dəyərsizləşmə əlaməti mövcud olanda isə dəyərsizləşmə baxımından qiymətləndirilir. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər üzrə amortizasiya dövrü və amortizasiya metodu ən azı hər bir hesabat dövrünün sonunda yenidən nəzərdən keçirilir. Gözlənilən istifadə müddəti və ya aktiv üzrə daxil olacaq gələcək iqtisadi səmərənin gözlənilən istifadə modelində dəyişikliklər müvafiq olaraq amortizasiya dövrünü və ya metodunu dəyişdirməklə uçot təxminlərində dəyişikliklər kimi qeydə alınır. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri məcmu gəlir haqqında hesabatda qeyri-maddi aktivlərin funksiyasına uyğun olaraq xərc kateqoriyasında tanınır.

Qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlər amortizasiya olunmur, lakin fərdi qaydada və ya pul vəsaitlərini yaradan biznes vahidləri səviyyəsində hər il dəyərsizləşmə baxımından yoxlanılır. Qeyri-müəyyən istifadə müddətinin hələ də münasib olmasını müəyyən etmək üçün qeyri-müəyyən istifadə müddəti hər il yenidən nəzərdən keçirilir. Artıq münasib deyilsə, istifadə müddəti perspektiv qaydada qeyri-müəyyən müddətdən məhdud müddətə dəyişdirilir.

**Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi**

Qrup hər bir hesabat tarixində aktivin dəyərsizləşə biləcəyini göstərən hər hansı əlamətin olub-olmadığını qiymətləndirir. Əgər hər hansı belə əlamət olarsa və ya aktiv üçün illik dəyərsizləşmə testinin aparılması tələb olunarsa, Qrup aktivin bərpa edilə bilən məbləği barədə ehtimal edir. Aktivin bərpa edilə bilən məbləği satış məsrəfləri çıxılmaqla aktivin və ya pul vəsaitlərini yaradan vahidin (PVYV) ədalətli dəyəri və onun istifadə dəyərindən daha yüksək olanıdır və hər hansı aktiv digər aktiv və ya aktivlər qrupu tərəfindən yaradılan pul vəsaitlərinin mədaxilindən əhəmiyyətli dərəcədə asılı olmayan pul vəsaitlərinin mədaxilini yaradırsa, həmin aktiv üçün fərdi olaraq müəyyən edilir. Aktivin və ya PVYV-nin balans dəyəri onun bərpa edilə bilən məbləğindən çox olduğu hallarda aktiv dəyərsizləşmiş hesab edilir və onun dəyəri bərpa edilə bilən məbləğədək azaldılır. İstifadə dəyərinin qiymətləndirilməsi zamanı ehtimal edilən pul vəsaitlərinin gələcək hərəkəti pulun vaxt dəyərinin cari bazar qiymətləndirilməsini və aktivlə bağlı riskləri əks etdirən vergi öncəsi diskont dərəcəsindən istifadə etməklə cari dəyərinə endirilir.

Satış xərcləri çıxılmaqla ədalətli dəyərin təyin olunması zamanı yaxın vaxtlarda bazar əməliyyatları olmuşdursa, onlar nəzərə alınır. Belə əməliyyatlar təyin oluna bilmirsə müvafiq qiymətləndirmə metodundan istifadə edilir.

Bu hesablamalar qiymətləndirmə əmsalları, səhmləri bazarda sərbəst dövriyyədə olan törəmə müəssisələr üçün elan edilmiş səhm qiymətləri və digər ədalətli dəyər göstəriciləri ilə təsdiq olunur.

Dəyərsizləşmənin hesablanmasını Qrup ətraflı büdcə və proqnoz hesablamaları ilə əsaslandırır. Bunlar Qrupun fərdi aktivlərinin aid edildiyi hər bir PVYV üçün ayrıca hazırlanır. Bu büdcə və proqnoz hesablamaları adətən beş illik müddəti əhatə edir. Daha uzun müddətlər üçün uzunmüddətli artım dərəcəsi hesablanır və beş ildən sonra layihənin gələcək pul vəsaitləri hərəkətlərinə tətbiq edilir.

Davam edən əməliyyatların dəyərsizləşmə zərərləri, o cümlədən mal-material ehtiyatlarının xalis satış dəyərinədək silinmələri konsolidə edilmiş maliyyə nəticələri haqqında hesabatda dəyərsizləşmiş aktivin funksiyasına uyğun xərc kateqoriyalarında uçota alınır. İstisna olaraq əvvəlcədən yenidən qiymətləndirilmiş əmlak üzrə yenidən qiymətləndirmə digər məcmu gəlirdə əks etdirilir. Bu halda dəyərsizləşmə həmçinin əvvəlki yenidən qiymətləndirmənin məbləğinədək digər ümumi gəlirdə tanınır.

Qudvil istisna olmaqla aktivlər üçün əvvəllər tanınmış dəyərsizləşmə zərərlərinin artıq mövcud olmadığını və ya azaldığını göstərən əlamətlərin mövcud olub-olmadığını müəyyən etmək üçün hər bir hesabat tarixində qiymətləndirmə aparılır. Belə əlamət mövcud olarsa, Qrup aktivin və ya PVYV-nin bərpa edilə bilən məbləğini ehtimal edir. Əvvəllər tanınmış dəyərsizləşmə zərərinin effekti yalnız sonuncu dəyərsizləşmə zərəri tanındığı vaxtdan etibarən aktivin bərpa edilə bilən məbləğinin müəyyən edilməsi üçün istifadə edilmiş fərziyyələrdə hər hansı dəyişiklik olduğu halda geri qaytarılır.

Zərərin effektinin geri qaytarılması aktivin balans dəyərinin onun bərpa edilə bilən məbləğindən və ya əvvəlki illərdə aktiv üçün heç bir dəyərsizləşmə zərəri tanınmamış olduğu halda, amortizasiya çıxılmaqla, müəyyən ediləcək balans dəyərindən çox olmamasını təmin edəcək şəkildə məhdudlaşdırılır. Zərərin effektinin belə geri qaytarılması gəlir haqqında hesabatda tanınır, lakin aktiv yenidən qiymətləndirilmiş dəyərlə uçota alınanda, geri qaytarılma yenidən qiymətləndirmə artımı kimi əks etdirilir.

**Mənfəət vergisi**

Konsolidə edilmiş maliyyə hesabatlarında mənfəət vergisi hesabat tarixinə qüvvədə olan müvafiq qanunvericiliyə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və konsolidə edilmiş məcmu gəlir haqqında hesabatda əks etdirilir.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə bağlı vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Mənfəət vergisindən başqa digər vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış vergi aktivi və öhdəliklərin vergi bazası və konsolidə edilmiş maliyyə hesabatlarında onların balans dəyəri arasında yaranan müvəqqəti fərqlər üçün tam hesablanır. Təxirə salınmış vergi aktivi qüvvədə olan və ya hesabat tarixinə qüvvəyə minmiş vergi dərəcələrinə (və qanunvericiliyə) əsasən hesablanır və müvafiq təxirə salınmış vergi aktivinin realizə ediləcəyi və ya təxirə salınmış vergi öhdəliyinin yerinə yetiriləcəyi halda tətbiq edilməsi gözlənilir.

Təxirə salınmış vergi aktivi və öhdəliklərinin əvəzləşdirilməsi cari vergi aktivləri və cari vergi öhdəliklərinin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq olduqda, eləcə də qalıqları xalis şəkildə əvəzləşdirmək niyyəti mövcud olduğu halda təxirə salınmış vergi aktiv və öhdəlikləri eyni vergi orqanı tərəfindən vergiyə cəlb edilən müəssisə və ya vergiyə cəlb edilən ayrı-ayrı müəssisələrə tətbiq edilmiş vergilərə aid olduqda həyata keçirilə bilər.

Təxirə salınmış vergi aktivləri müvəqqəti fərqlərin istifadə oluna bilməsi üçün vergiyə cəlb edilən mənfəətin əldə edilməsi ehtimalının mövcud olacağı zaman hesablanır.

**Əlavə Dəyər Vergisi**

Vergi orqanları satış və alış əməliyyatları üzrə əlavə dəyər vergisinin ("ƏDV") xalis əsasda ödənilməsinə icazə verir.

**ƏDV üzrə kreditor borcu**

ƏDV üzrə kreditor borcu hesabat tarixində əvəzləşdirilmiş alışlar üzrə ƏDV çıxılmaqla, satış üzrə ƏDV məbləğidir. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edilən dəyişikliklərdən sonra 01 yanvar 2020-ci ildən satışla bağlı ƏDV ödəniş alındıqdan sonra vergi orqanlarına ödənilir. Debitor borclarının dəyişdirilməsi üzrə ehtiyat yaradıldıqda, dəyişdirilmə üzrə ehtiyat lazım olduqda ƏDV daxil olmaqla, debitor borcunun ümumi məbləğində qeydə alınır. ƏDV üzrə müvafiq təxirə salınmış öhdəlik vergi məqsədləri üçün debitor borcu silinənə qədər saxlanılır.

Müştərilərdən yığılmış satış pulları ilə bağlı ƏDV və alışlar üzrə ödənilmiş ƏDV maliyyə vəziyyəti haqqında hesabatda xalis dəyərdə aktiv və ya öhdəlik kimi təqdim edilir. Hesabat tarixində ödənilməmiş satışlar üzrə ƏDV məbləği (ƏDV hesablanması) ƏDV üzrə kreditor borcu kimi göstərilir.

Satış əməliyyatları üzrə ƏDV ilə əvəzləşdiriləcək ƏDV arasındakı fərq hesabat ayından sonrakı 20 gün ərzində dövlət büdcəsinə ödənilməlidir.

**Əvəzləşdiriləcək ƏDV**

Əvəzləşdiriləcək ƏDV hesabat tarixində ödənilməmiş alış əməliyyatlarına aiddir. Əvəzləşdiriləcək ƏDV alışlar üzrə ödəniş aparıldığı təqdirdə əvəzləşdiriləcəkdir.

**Öhdəliklər və məsrəflər üzrə ehtiyatlar**

Öhdəliklər və məsrəflər üzrə ehtiyatlara qeyri-müəyyən müddəti və ya məbləği olan öhdəliklər daxildir. Qrupun keçmiş hadisələr nəticəsində hüquqi və ya işgüzar praktikadan irəli gələn öhdəlikləri mövcuddursa həmin öhdəliklərin yerinə yetirilməsi üçün iqtisadi resursların sərf olunması ehtimalı böyük olduqda və öhdəliklərin məbləği kifayət qədər dəqiq ölçülə bildikdə ehtiyatlar uçota alınır. Gələcək əməliyyat zərərləri üçün ehtiyatlar uçota alınmır.

Bir sıra analoji öhdəliklər mövcud olarsa, həmin öhdəliklərin yerinə yetirilməsi məqsədilə resursların sərf olunması ehtimalı ümumilikdə bütün öhdəliklər üçün müəyyən edilir. Ehtiyat öhdəliklə eyni sinfə daxil olan hər hansı ayrıca maddə üzrə resursların sərf olunması ehtimalı az olduqda belə qeydə alınır.

Ehtiyatlar vergidən əvvəl faiz dərəcəsindən istifadə etməklə, öhdəliyin yerinə yetirilməsi üçün zəruri olan xərclərin cari dəyəri ilə qiymətləndirilir. Vergidən əvvəl faiz dərəcəsi pul vəsaitlərinin vaxt dəyəri üzrə cari bazar qiymətlərini və öhdəliklərə xas olan riskləri əks etdirir. Vaxtın keçməsinə görə ehtiyatlardakı artım faiz xərcləri kimi uçota alınır.

**Dövlət investisiyaları**

Dövlət investisiyaları pul qoyuluşları, digər dövlət müəssisələrinin köçürülməsi və ya Dövlətin digər müəssisələrdəki payının bütövlükdə və ya qismən köçürülməsi formasında həyata keçirilir. Qrupa digər dövlət müəssisələrinin köçürülməsi köçürülən müəssisənin ədalətli dəyəri ilə eyni məbləğdə konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabat vasitəsilə kapital qoyuluşu kimi tanınır (Dövlət digər müəssisələrdəki payını köçürdüyü halda-müvafiq müəssisənin ədalətli dəyərində köçürülmüş pay).

**Gəlirlərin uçotu**

Gəlirlər Qrupun adi fəaliyyətinin gedişində satılmış mallar və ya göstərilmiş xidmətlərə görə aldığı və ya alacağı məbləğin ədalətli dəyərini əks etdirir. Gəlirlər, Qrupun daxilində aparılan satışları silinməklə, ƏDV, geri qaytarılma, güzəşt və satışdan tutulan digər vergilər (əgər varsa) çıxılmaqla göstərilir.

Suyun satışından və kanalizasiya xidmətlərindən gəlirlər mütəmadi olaraq su sayğaclarının göstəriciləri (aylıq əsasla yoxlanılır) və sayğacın son göstəricisindən hesabat dövrünün sonunadək təxmin edilmiş müştərinin sudan istifadəsi əsasında uçota alınır. Azərbaycan Respublikasında abunəçi üçün su qiymətləri və çirkab su üzrə tariflər Azərbaycan Respublikasının Tarif Şurası tərəfindən nizamlanır.

Xidmətlərin satılması müqavilə üzrə göstəriləcək ümumi xidmətlərin müəyyən bir hissəsi olaraq konkret əməliyyatın tamamlanma mərhələsinə müvafiq olaraq həmin xidmətlərin göstərildiyi uçot dövründə qeydə alınır.

**Dövlət subsidiyalarının tanınması**

Qrupun əməliyyat zərərlərini əvəzləşdirmək üçün Maliyyə Nazirliyindən verilən subsidiyalar, subsidiya vəsaitləri əldə olunduqda və ya onları əldə etmək hüququ müəyyən edildikdə satışdan əldə olunan gəlir kimi tanınır. Subsidiyanın əldə ediləcəyi və bütün şərtlərə riayət olunacağı ilə bağlı əsaslı əminlik mövcud olduğu halda subsidiyalar tanınır.

**Xərclər**

Xərclər konsolidə edilmiş məcmu gəlir haqqında hesabatda funksiyalar üzrə təqdim edilir. Xərclərin xüsusiyyətlərinin təsnifatı Qrupun departamentləri və törəmə müəssisələrinin əməliyyat funksiyalarına əsaslanır.

**İşçilərin mükafatlandırılması**

Qrupun işçilərinin əməkhaqları, maaşları, Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna ayırmalar, ödənilmiş illik məzuniyyət və xəstəliklə bağlı müavinətlər, mükafatlar və qeyri-monetar faydalar (misal üçün, sağlamlıqla bağlı xidmətlər) aid olduqları hesabat dövründə tanınır.

**Əlaqəli tərəflər**

Əlaqəli tərəflər haqqında məlumat *"Əlaqəli tərəflər barədə açıqlamalar"* adlı 24 saylı MUBS-a uyğun olaraq açıqlanır.

Dövlətin iqtisadi və sosial siyasəti Qrupun maliyyə vəziyyətinə, əməliyyat nəticələrinə və pul vəsaitlərinin hərəkətinə təsir edir. Dövlət Qrupun üzərinə Azərbaycan Respublikasındakı müştəriləri dövlətin nəzarət etdiyi qiymətlərlə davamlı olaraq su ilə təchiz etmək öhdəliyini qoymuşdur.

Əlaqəli tərəflər öz aralarında əlaqəli olmayan tərəflərin apara bilmədiyi əməliyyatları həyata keçirə bilər. Bununla yanaşı, əlaqəli tərəflər arasında aparılan əməliyyatların şərtləri, müddətləri və məbləğləri əlaqəli olmayan tərəflər arasında aparılan əməliyyatlarla eyni olmaya bilər. Əlaqəli tərəflərlə aparılan əməliyyatların xarakterinə görə onlar kommersiya cəhətdən müstəqil tərəflər arasında həyata keçirilən əməliyyatların şərtlərinə uyğun hesab edilə bilməz.

**İcarə müqavilələri**

**Qrupun icarəyə götürən qismində çıxış etdiyi icarə müqavilələrinin uçotu**

Qrup ofis sahələri icarəyə götürür. İcarə müqavilələri Qrupun icarəyə götürülmüş aktivi istifadə etdiyi tarixə müvafiq öhdəliklə birlikdə aktivdən istifadə hüququ kimi tanınır. Hər bir icarə ödənişi öhdəlik və maliyyə xərcləri arasında bölüşdürülür. Maliyyə xərcləri hər bir dövr üçün öhdəliyin qalığı üzrə sabit olaraq müntəzəm faiz dərəcəsini təmin etmək üçün icarə müddəti ərzində mənfəət və ya zərərə aid edilir. İkin dəyərlə tanınan aktivdən istifadə hüququ onun faydalı istifadə və ya icarə müddəti ərzində (bu müddətlərdən hansı daha tez başa çatarsa) düz xətt metodu ilə amortizasiya edilir.

İcarə müqaviləsi üzrə yaranan öhdəliklər ilkin olaraq cari dəyərlə qiymətləndirilir. İcarə öhdəliklərinə aşağıdakı icarə ödənişlərinin xalis cari dəyəri daxildir:

- İcarə üzrə alınacaq həvəsləndirici ödənişlər çıxılmaqla, sabit ödənişlər (mahiyyətcə sabit ödənişlər daxil olmaqla);
- İndeks və ya dərəcələrdən asılı olan dəyişkən icarə ödənişləri;
- Zəmanətli son qalıq dəyəri üzrə icarəyə götürən tərəfindən ödənilməsi gözlənilən məbləğlər;
- İcarəyə götürənin əsaslandırılmış şəkildə əmin olduğu halda alış hüququnun istifadə ediləcəyi qiymət;
- İcarə müddəti ərzində icarəyə götürən icarəni ləğv etmə hüququnu istifadə edərsə, icarənin ləğv edilməsi ilə bağlı cərimə ödənişləri.

İcarə ödənişləri icarə müqaviləsində nəzərdə tutulan faiz dərəcəsi ilə diskontlaşdırılır. Bu faiz dərəcəsinin müəyyən edilməsi mümkün olmadıqda icarəyə götürənin borc kapitalı üzrə artan faiz dərəcəsi istifadə edilir. Borc kapitalı üzrə artan faiz dərəcəsi icarəyə götürənin oxşar iqtisadi mühitdə aktivdən istifadə hüququnun dəyərinə oxşar məbləğdə aktiv əldə etməsi üçün eyni müddət və şərtlərlə zəruri olan vəsaitlərin cəlb edilməsi zamanı ödəməli olduğu faiz dərəcəsidir. Aktivdən istifadə hüququ aşağıdakılar nəzərə alınmaqla, ilkin dəyərlə qiymətləndirilir.

- İcarə öhdəliyinin ilkin qiymətləndirmə məbləği;
- İcarə üzrə həvəsləndirici ödənişlər çıxılmaqla, icarə müqaviləsinin başlanma tarixindən əvvəl aparılmış bütün icarə ödənişləri;
- Bütün ilkin birbaşa xərclər;
- Bərpa xərcləri.

İcarə müddətini müəyyən edərkən Qrupun rəhbərliyi icarənin uzadılması və ya icarənin ləğv edilməsi hüquqlarının istifadəsi üçün iqtisadi stimul yaradan bütün fakt və şərtləri nəzərə alır. İcarənin uzadılması hüquqları (və ya icarənin ləğv edilməsi hüququnun istifadəsi müddətindən sonrakı dövrlərin) yalnız müqavilənin müddətinin uzadılacağına (və ya ləğv edilməyəcəyinə) əsaslı şəkildə əminlik olduqda icarə müddətinə daxil edilir.

Qiymətləndirməyə təsir edən mühüm hadisə baş verdikdə və ya şəraitdə əhəmiyyətli dəyişiklik olduqda və belə hallar icarəyə götürənin nəzarəti altında olduqda qiymətləndirmə yenidən nəzərdən keçirilməlidir.

**Qrupun icarəyə verən qismində çıxış etdiyi əməliyyat icarəsi müqavilələrin uçotu**

Aktivlər əməliyyat icarəsinə verildikdə alınacaq icarə ödənişləri icarə müddəti ərzində düz xətt metodundan istifadə etməklə icarə gəliri kimi tanınır.

Maliyyə hesabatlarının hazırlanmasında qəbul edilmiş uçot siyasəti, 31 dekabr 2024-cü il tarixində bitən il üçün Qrupun maliyyə hesabatlarının hazırlanmasında uçot qaydaları ilə eynidir. 01 yanvar 2025-ci ildən qüvvəyə minən bir neçə düzəliş tətbiq olunmuşdur, lakin Qrupun konsolidə edilmiş maliyyə hesabatlarına təsiri olmamışdır.

## 3. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN TƏTBİQİ

Cari ildə Qrup Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) və BMUSŞ-nin Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Qrupun fəaliyyəti üçün münasib olan və 31 dekabr 2023-cü il tarixində başa çatmış hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

**"Sığorta müqavilələri" adlı 17 saylı MHBS** 2017-ci ilin may ayında dərc olunmuşdur və "Sığorta müqavilələri" adlı 4 saylı MHBS-ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilələrinə "Sığorta müqavilələri" adlı 17 saylı MHBS-ni tətbiq etməlidir. Bu standart Qrupa şamil edilmir.

**Uçot Siyasətinin Açıqlanması – 1 saylı BMUS və 2 saylı MHBS Metodik Sənədi –** 2021-ci ilin fevral ayında BMUSŞ 1 saylı BMUS və "Əhəmiyyətlilik haqqında mühakimələrin yürüdülməsi" adlı 2 saylı MHBS Metodik Sənədə düzəlişlər etmişdir. Bu düzəlişlər müəssisələrə uçot siyasəti haqqında açıqlamalar edərkən əhəmiyyətliliklə bağlı mühakimələrin tətbiq edilməsinə kömək edilməsi məqsədilə təlimat və nümunələri təqdim edir. Düzəlişlər müəssisələr üçün "əhəmiyyətli" uçot siyasətləri haqqında məlumatın açıqlanması tələbini onların "əhəmiyyətli" uçot siyasətinin açıqlanması tələbi ilə əvəz etməklə və mühasibat uçotu siyasəti ilə bağlı açıqlamalar barədə qərar qəbul edərkən müəssisələrin uçot siyasəti haqqında daha faydalı məlumatı açıqlamaqda kömək etmək məqsədi daşıyır.

**Uçot təxminlərinin müəyyən edilməsi – 8 saylı BMUS-a edilən Düzəlişlər –** 2021-ci ilin fevral ayında BMUSŞ "uçot təxminləri" anlayışını təqdim edən 8 saylı BMUS-a düzəlişi dərc etmişdir. Düzəlişlər müəssisələrin uçot siyasətindəki dəyişiklikləri uçot təxminlərindəki dəyişikliklərdən necə fərqləndirməli olduğunu və xətaların aradan götürülməsini izah edir. Həmçinin, bu düzəlişlər mühasibat uçotu təxminlərini hazırlamaq üçün müəssisələrin ölçmə üsullarından və giriş məlumatlarından necə istifadə etdiyini aydınlaşdırır.

**Eyni əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergilər – 12 saylı BMUS-a edilən Düzəlişlər** - 2021-ci ilin may ayında Şura 12 saylı BMUS-a uyğun olaraq ilkin tanınma istisnasının əhatə dairəsini azaldan 12 saylı BMUS-a düzəlişlər etdi, beləliklə, o, vergi bazasını artıran və azaldan bərabər məbləğdə müvəqqəti fərqlərə səbəb olan əməliyyatlara artıq tətbiq edilmir. Düzəlişlər təqdim edilən ən erkən müqayisəli dövrün əvvəlində və ya ondan sonra baş verən əməliyyatlara tətbiq edilməlidir. Bundan əlavə, təqdim olunan ən erkən müqayisəli dövrün əvvəlində icarə və istismardan çıxarma öhdəlikləri ilə bağlı bütün gəlirdən çıxılan və vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün təxirə salınmış vergi aktivi (kifayət qədər vergi tutulan mənfəətin olması şərtilə) və təxirə salınmış vergi öhdəliyi də tanınmalıdır.

**Beynəlxalq vergi islahatı - İki mərhələli model qaydaları – 12 saylı BMUS-a düzəlişlər** – 2023-cü ilin may ayında Şura 12 saylı BMUS-a düzəlişlər tətbiq etmişdir, 12 saylı BMUS-a əsasən İki mərhələli mənfəət vergiləri ilə əlaqədar təxirə salınmış vergi aktivləri və öhdəliklərinin tanınması və açıqlanması ilə bağlı məcburi istisnalar tətbiq olunur. Bu düzəlişlərə əsasən 12 saylı BMUS-a icbari istisnalar tətbiq olunur, belə ki, düzəlişə əsasən müəssisələr İki mərhələli gəlir vergiləri ilə əlaqədar olan təxirə salınmış vergi aktivləri və öhdəliklərinin tanınması və açıqlanmasından azaddır. Düzəlişlərə əsasən 12 saylı BMUS İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən təqdim olunan İki mərhələli model qaydalarını icra edən qanunvericilik əsasında yaranan mənfəət vergilərinə şamil olunur. Açıqlanma tələbləri daha sonra qüvvəyə mindiyi halda, müəssisələr istisnanın tətbiqini açıqlamalı və ayrılıqda İki mərhələli mənfəət vergiləri ilə əlaqədar olan cari vergi xərcləri haqqında ətraflı məlumat verməli və qüvvədə olan və gələcək dövrlər üzrə İki mərhələli mənfəət vergilərinə məruz qalma haqqında məlumatı təqdim etməlidirlər. 31 dekabr 2023-cü il tarixində və ya ondan əvvəl başa çatmış istənilən aralıq dövr istisna olmaqla, keçid müddəaları 01 yanvar 2023-cü il tarixi və ya ondan sonra başlayacaq illik hesabat dövrləri üçün tətbiq oluna bilən xüsusi açıqlama tələbləri ilə dərhal və retrospektiv qaydada tətbiq olunur.

Əksi qeyd olunmadığı halda, yeni standartların Qrupun konsolidə edilmiş maliyyə hesabatlarına heç bir əsaslı təsiri olmayacaqdır.

## 4. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Qrup tərəfindən, qüvvəyə minən tarixdən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Qrup hazırkı yeni və düzəliş edilmiş standartları və şərhləri (əgər varsa) qüvvəyə mindikdən sonra qəbul etmək niyyətindədir.

BMUSŞ, satış kimi uçota alınması nəzərdə tutulan 15 saylı MHBS-nin tələblərinə cavab verən satış və geri icarə əməliyyatlarını sonradan satıcı-icarədarın necə ölçməsini aydınlaşdırmaq üçün **"Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi"ni (16 saylı MHBS-yə edilən Düzəlişlər) düzəlişlərlə birgə dərc etmişdir. Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi (16 saylı MHBS-yə edilən Düzəlişlər)** satıcı-icarədardan istifadə hüququnu özündə saxlayan hər hansı gəlir və ya zərər məbləğini tanımamaq üçün geri icarədən irəli gələn icarə öhdəliyini sonradan ölçməsini tələb edir. Yeni tələblər satıcıicarədarı icarənin qismən və ya tam xitam verilməsi ilə bağlı hər hansı gəlir və ya zərəri mənfəət və ya zərərdə tanınmasını qadağa etmir. Düzəlişlər 01 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minmişdir.

**1 saylı BMUS-a düzəlişlər: Öhdəliklərin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsi** – 2020-ci ilin yanvar və 2022-ci ilin oktyabr aylarında BMUSŞ öhdəliklərin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsinə dair tələbləri müəyyən etmək üçün 1 saylı BMUS-un 69-76-cı bəndlərinə düzəlişlər dərc etmişdir. Düzəlişlər aşağıdakı məsələlər üzrə məlumat təqdim edir:

- Ödənişin təxirə salınması hüququ dedikdə nəzərdə tutulan müddəalar;
- Hesabat dövrünün sonunda təxirəsalma hüququ mövcud olmalıdır;
- Müəssisənin təxirəsalma hüququndan istifadə etmə ehtimalı təsnifata heç bir təsir göstərmir;

- Yalnız konvertasiya edilə bilən öhdəliyə daxil edilmiş törəmə alətin özü kapital aləti olduqda, öhdəliyin şərtləri onun təsnifatına təsir etmir.

Əlavə olaraq, kredit sazişindən yaranan öhdəlik uzunmüddətli olaraq təsnif olunduqda və müəssisənin ödənişi təxirə salmaq hüququ on iki ay ərzində gələcək müqavilələrə riayət olunmasından asılı olduqda, açıqlama tələb edilməsi üçün tələb irəli sürülür.

Düzəlişlər 01 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minmişdir.

2023-cü ilin may ayında BMUSŞ **"Təchizatçının maliyyələşdirilməsi üzrə razılaşmalar"**ı dərc etmişdir **(7 saylı BMUS və 7 saylı MHBS-yə edilmiş düzəliş)** – Bu düzəlişlər təchizatçının maliyyə razılaşmalarının şəffaflığının artırılması və onların müəssisənin öhdəliklərinə, pul vəsaitlərinin hərəkətinə və likvidlik riskinə məruz qalmasına təsiri barəsində açıqlamalar tələb edir. Açıqlama tələbləri, bəzi şirkətlərin təchizat üzrə maliyyə razılaşmalarının kifayət qədər nəzərə çarpmamasının səhmdarların təhlilinə maneə törətməsi üzrə səhmdarların narahatlığına BMUSŞ-nin verdiyi cavabdır.

Düzəlişlər 01 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün, birinci il keçid dövrü ilə əlaqədar güzəştlər olmaqla qüvvəyə minmişdir.

2023-cü ilin avqust ayında BMUSŞ valyutanın digər bir valyutaya konvertasiya olunması və valyuta konvertasiya oluna bilmədikdə cəmiyyətin spot məzənnəni qiymətləndirmə qaydası haqqında açıqlama vermək üçün **"Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri" adlı 21 saylı BMUS-a düzəliş dərc etmişdir.** Müəssisə xüsusi bir məqsədlə qiymətləndirmə tarixində digər bir valyutaya konvertasiya oluna bilməyən xarici valyutada köçürmə və ya əməliyyat həyata keçirərsə, düzəlişlərin təsirinə məruz qala bilər. Normal inzibati təxirəsalma ilə başqa bir valyuta əldə etmək imkanı olarsa, valyutanın mübadiləsi mümkündür və əməliyyat icra oluna bilən hüquq və öhdəliklər yaradan bazar və ya mübadilə mexanizmi vasitəsilə həyata keçirilir.

Düzəlişlər, erkən tətbiqetmə seçimi mövcud olmaqla, 01 yanvar 2025-ci il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

9 aprel 2024-cü il tarixində BMUSŞ müəssisələrin fəaliyyəti haqqında hesabatın müqayisəliliyi və şəffaflığı ilə bağlı investorların suallarına cavab olaraq **"Maliyyə Hesabatlarının Təqdimatı və Açıqlanması" adlı 18 saylı MHBS** yeni standartını dərc etmişdir. 18 saylı MHBS-də təqdim olunan yeni tələblər bənzər müəssisələrin maliyyə fəaliyyətinin, xüsusilə də "əməliyyat mənfəət və ya zərəri" ilə bağlı məsələlərin müqayisəli məlumatlarını əldə etməyə yardım edəcək. 18 saylı MHBS-yə daxil edilən əsas yeni müddəalar aşağıdakı məsələləri əhatə edir:

- Mənfəət və ya zərər hesabatının strukturu;
- Müəssisənin maliyyə hesabatlarından kənar məruzə olunan müəyyən mənfəət və ya zərər ilə bağlı maliyyə hesabatlarında tələb olunan açıqlamalar (rəhbərlik tərəfindən müəyyən edilən fəaliyyət tədbirləri); və
- Ümumilikdə əsas maliyyə hesabatları və qeydlərinə tətbiq olunan cəmləşdirmə və bölünmə üzrə gücləndirilmiş prinsiplər.

18 saylı MHBS 1 saylı BMUS-u əvəz edəcək; 1 saylı BMUS üzrə bir sıra mövcud prinsiplər məhdud sayda dəyişikliklər ilə saxlanmışdır. 18 saylı MHBS maliyyə hesabatlarında qeyd olunan maddələrin tanınması və ya ölçülməsinə təsir göstərməyəcək, lakin bu standart müəssisənin "əməliyyat mənfəəti və ya zərər" hesabatlarında dəyişikliyə səbəb ola bilər.

18 saylı MHBS 01 yanvar 2027-ci il tarixində başlayan və həmin tarixdən sonrakı hesabat dövrlərinə və həmçinin müqayisəli məlumatlara tətbiq olunur.

2024-cü ilin may ayında BMUSŞ tərəfindən 19 saylı **"İctimai Maliyyə Hesabatlılığı olmayan Törəmə Müəssisələr: Məlumatların Açıqlanması"** adlı yeni standartı dərc edilmişdir, bu standarta əsasən törəmə müəssisə maliyyə hesabatlarına MHBS üzrə Uçot Standartlarını tətbiq edərkən maliyyə məlumatlarına dair qısaldılmış açıqlamalar təqdim edə bilər. 19 saylı MHBS törəmə müəssisələrin seçimi əsasında tətbiq edilir və bu standartı tətbiq etməyi seçən törəmə müəssisələr üçün məlumatların açıqlanması tələblərini müəyyən edir.

Müəssisəyə yalnız aşağıdakı hallarda 19 saylı MHBS-nin tətbiqinə icazə verilir:

- törəmə müəssisə olmalı;
- ictimai hesabatlılığı olmamalıdır; və
- onun birbaşa və ya hər hansı vasitəçi ana müəssisəsi MHBS Uçot Standartlarına uyğun olan konsolidə edilmiş maliyyə hesabatlarını hazırlamalıdır.

Yeni standart 01 yanvar 2027-ci il tarixinə və ya ondan sonrakı hesabat dövrlərinə şamil olunur, erkən tətbiqinə icazə verilir.

**"Konsolidə edilmiş Maliyyə Hesabatları" adlı 10 saylı MHBS və "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi" adlı 28 saylı BMUS (düzəlişlər):** 10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidə olunmuş əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidə olunmuş assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi BMUSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**"İqlimlə bağlı açıqlamalar"** adlı **MHBS S2** standartı, Beynəlxalq Davamlılıq Standartları Şurası (ISSB) tərəfindən 26 iyun 2023-cü ildə, **MHBS S1** ilə eyni tarixdə rəsmi olaraq yayımlanmışdır.

MHBS S2 davamlılıqla bağlı ümumi açıqlama tələblərini təmin edən MHBS S1-i tamamlayaraq, iqlimlə bağlı risk və imkanlara xüsusi diqqət yetirir. Bu standartlar birlikdə davamlılıq və iqlimlə bağlı maliyyə hesabatları üçün razılaşdırılmış və müqayisə edilə bilən qlobal çərçivə yaratmağı hədəfləyir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların Qrupun konsolidə edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 5. MÜHÜM MÜHASİBAT UÇOTU EHTİMAL VƏ MÜHAKİMƏLƏRİ

Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması rəhbərlikdən gəlirlər, xərclər, aktivlər və öhdəliklərin hesabatdakı məbləğlərinə, əlavə edilən açıqlamalara və şərti öhdəliklərin açıqlanmasına təsir göstərə bilən fərziyyələr, ehtimallar və mühakimələr etməyi tələb edir. Bu ehtimal və mühakimələrə dair qeyri-müəyyənlik gələcək dövrlərdə təsiri olmuş aktiv və öhdəliyin balans dəyərinə əhəmiyyətli düzəliş etməyi tələb edən nəticələrə gətirib çıxara bilər.

Ehtimal və mühakimələr davamlı olaraq qiymətləndirilir və rəhbərliyin təcrübəsi və digər amillərə, o cümlədən mövcud şəraitdə məqbul sayılan gələcək hadisələrin baş verməsinin ehtimalları əsasındadır. Qrup konsolidə edilmiş maliyyə hesabatları hazırlandıqda mövcud parametrlər üzrə fərziyyələr və təxminlərə əsaslanır. Lakin mövcud hadisələr və gələcək hadisələr haqqında fərziyyələr bazarda dəyişikliklərə və ya Qrupun nəzarəti xaricində baş vermiş hadisələrə görə dəyişə bilər. Belə dəyişikliklər baş verdikdə fərziyyələrdə bu öz əksini tapır. Həmçinin, rəhbərlik mühasibat uçotu qaydalarının tətbiqi prosesində həmin təxminləri daxil etməyən müəyyən mülahizələr edir.

Bu konsolidə edilmiş maliyyə hesabatlarında tanınmış məbləğlər üzrə ən mühüm təsiri olan mühakimələr və hesabat tarixində aktivlərin və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişə səbəb ola biləcək ehtimallara aşağıdakılar daxildir.

**Ətraf mühitin qorunması ilə bağlı öhdəliklər**

Qrup göstərdiyi fəaliyyət nəticəsində ətraf mühitə dəymiş zərərin ödənilməsi üçün təxmin edilən xərclər məbləğində ehtiyat ayırır. Ehtiyat kimi uçota alınmış məbləğ müvafiq konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat tarixinə qüvvədə olan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin tələblərinə uyğun olaraq cari öhdəliyin yerinə yetirilməsi üçün tələb olunan xərclər əsasında hesablanmış ən dəqiq məbləğdir və qanunda baş vermiş əlavə və dəyişikliklər ilə əlaqədar olaraq dəyişə bilər. Dövlət orqanları ətraf mühitlə bağlı qanunvericiliyi və onun tətbiqini davamlı olaraq nəzərdən keçirir.

31 dekabr 2024-cü il və 2023-cü il tarixlərinə ətraf mühitin bərpası ilə bağlı təxmin edilmiş öhdəlik sıfır məbləğində qiymətləndirilir. Bu şərtlərdən hər hansı birinin dəyişməsi Qrupun ayırdığı ehtiyatlar üzrə düzəlişlərin aparılmasına gətirib çıxara bilər.

**Torpaq, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti**

Rəhbərlik torpaq, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərin təxmin edilən faydalı istifadə müddətini və müvafiq köhnəlmə və amortizasiya xərclərini müəyyən edir. Bu təxminlər Qrupun həmin aktivlər üzrə iqtisadi səmərə əldə etməyi planlaşdırdığı dövrə əsaslanır. Əgər faydalı istifadə müddəti əvvəlki illərdə təxmin edilmiş faydalı müddətdən aşağı olarsa, rəhbərlik köhnəlmə xərcini artıracaq və ya ləğv edilmiş və ya satılmış texniki cəhətdən köhnəlmiş aktivləri balansdan siləcəkdir. Faydalı istifadə müddətinə ən azı hər maliyyə ilinin sonunda yenidən baxılır. Yuxarıda qeyd olunan şərtlərin və ya təxminlərin hər hansı birində dəyişiklik olarsa, bu gələcəkdə köhnəlmə faizləri üzrə düzəlişlərin aparılmasına gətirib çıxara bilər.

**Təxirə salınmış vergi aktivinin uçotu**

Təxirə salınmış xalis vergi aktivi vergiyə cəlb olunan gəlirdən gələcək çıxılmalar vasitəsilə əldə olunan mənfəət vergisi məbləğlərindən ibarətdir və konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda qeydə alınır. Təxirə salınmış mənfəət vergisi aktivləri realizə oluna biləcəyi məbləğdə uçota alınır. Vergiyə cəlb olunan gələcək mənfəət və gələcəkdə yaranması ehtimal edilən vergi faydasının məbləğini ehtimal edərkən rəhbərlik son üç ilin vergiyə cəlb olunan mənfəətindən və mövcud şəraitdə məqbul hesab edilən gələcək gəlirlər üzrə təxminlərdən istifadə edir. Gələcək dövrlərdə yetəri qədər vergi gəliri əldə edilməyəcəyi ehtimal olunduğu üçün təxirə salınmış vergi aktivi tanınmamışdır.

**Dövlət tərəfindən təsisçi qismində verilmiş aşağı faizli kreditlər**

Azərbaycan dövləti təsisçi qismində Qrupa vaxtaşırı olaraq bazar dəyərindən aşağı və ya sıfır faizlə kreditlər ayırır. Bu kreditlərin verilmə anında ədalətli dəyəri və müqavilə dəyəri arasında fərq Qrup tərəfindən kapitalın digər ehtiyatlar maddəsində tanınır. Bu tip əməliyyatlarda Qrup dövlətin qrant təqdim edən rolda deyil, təsisçi qismində iştirak etməsi mülahizəsini tətbiq edir.

Bu kreditlərin ədalətli dəyərini müəyyənləşdirərkən Qrup kreditin verilmə tarixinə oxşar maliyyə alətləri üçün mövcud olan bazar faiz dərəcəsindən istifadə edir.

**Cari vergilər**

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlər və tez-tez edilən dəyişikliklərlə səciyyələnir. Bundan əlavə, Qrupun əməliyyatları və fəaliyyətinə tətbiq edilən vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərhi rəhbərliyin şərhi ilə üst-üstə düşməyə bilər. Nəticədə, vergi orqanları əməliyyatlara qarşı iddialar irəli sürə və Qrupun müəssisələrinə əlavə əhəmiyyətli ola biləcək vergi, cərimə və faiz hesablana bilər.

Vergi və gömrük orqanları yoxlama ilindən əvvəlki üç təqvim ili üzrə vergi öhdəlikləri ilə bağlı yoxlama apara bilərlər. Müəyyən hallarda yoxlamalar daha uzun müddəti əhatə edə bilər.

31 dekabr 2024-cü il və 2023-cü il tarixlərində başa çatmış il üzrə rəhbərlik hesab edir ki, Qrup müvafiq qanunvericiliyi düzgün şərh edir və Qrupun vergi, valyuta və gömrük mövqelərinin müdafiə edilməsi mümkün olacaqdır.

**Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi**

Bərpa edilə bilməyən aktivlərin balans dəyərini əks etdirən hadisələr və ya şəraitə əsasən rəhbərlik hər bir hesabat tarixində bütün qeyri-maliyyə aktivlərinin mümkün dəyərsizləşməsi üzrə hər hansı əlamətlərin olub-olmamasını müəyyən edir. Qudvil və digər qeyri-müəyyən faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər hər il və digər vaxtlarda dəyərsizləşmə göstəriciləri olduğu zaman dəyərsizləşmə üzrə yoxlanılır. Digər qeyri-maliyyə aktivləri bərpa edilə bilməyən balans dəyərinə dair əlamətlərin mövcud olduğu zaman dəyərsizləşmə üzrə yoxlanılır.

Qrupun fəaliyyətinin xarakterini nəzərə alaraq, potensial alıcılar ilə danışıqlar aparılmayana qədər aktivin ədalətli dəyəri haqqında məlumat əldə etmək adətən çətindir. Müvafiq olaraq, başqa cür qeyd olunmadığı halda, aşağıda göstərilən dəyərsizləşmə üzrə xərclərin müəyyən edilməsində istifadə edilən bərpa edilə bilən dəyər istifadə dəyəridir.

İstifadə dəyəri hesablanarkən rəhbərlik aktivlər və yaxud pul vəsaitlərini yaradan vahidlər üzrə gələcək pul vəsaitlərinin hərəkətini təxmin edir və onların cari dəyərini hesablamaq üçün uyğun diskont dərəcəsini seçir.

Qrup bir Pul Vəsaitlərini Yaradan Vahid (PVYV) hesab olunmuşdur və dəyərsizləşmə bütün Qrup səviyyəsində müəyyən edilmişdir. PVYV-nin dəyəri vergidən əvvəl əsasla 12,92 % (2023-cü il: 11,84%) dərəcə ilə gələcək pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılması yolu ilə hesablanmışdır və 110,226 AZN (2023-cü il: 172,918 AZN) məbləğində dəyərsizləşmə xərci müəyyən torpaq, tikili və avadanlıqların balans dəyərinin (bu aktivlərin funksional istifadəsini nəzərə alaraq) silinməsi üçün konsolidə edilmiş mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda tanınmışdır.

Kapitalın Orta Çəkili Dəyəri (KOÇD) hesablanarkən kapitalın dəyəri oxşar Qrup məlumatlarından istifadə etməklə təxmin edilir və borcun dəyəri Qrupun ödəməli olduğu faiz hesablanan borc öhdəliklərinə əsaslanır. Xüsusi risklər ayrı-ayrı beta amillərini, bazar riskini və Qrupun həcmini tətbiq etməklə nəzərə alınır.

Beta amilləri ictimaiyyətə açıq olan bazar məlumatlarına əsasən hər il qiymətləndirilir.

**Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlar**

Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlar istehlakçıların debitor borclarının yığılması ehtimalının rəhbərlik tərəfindən qiymətləndirilməsinə əsaslanır. İstehlakçıların əhəmiyyətli maliyyə çətinlikləri, müqavilə üzrə tərəflərin müflisləşmə və ya maliyyə strukturunun yenidən təşkilinə məruz qalması ehtimalı və defolt və ya ödənişlərin gecikdirilməsi debitor borclarının potensial olaraq dəyərsizləşmiş olmasını əks etdirən göstəricilər hesab edilir. Əgər əsas müştərinin ödəniş qabiliyyətində pisləşmə baş verərsə və ya bu faktiki defolt təxminlərindən yuxarı olarsa, faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər. Əlavə olaraq, kiçik debitor borclarının böyük qismi oxşar qruplara birləşdirilir və məcmu şəkildə dəyərsizləşmə üzrə qiymətləndirilir. 12 aydan artıq dövriyyədə olan debitor borcları ümumilikdə müvafiq dəyərsizləşmə ehtiyatına silinir.

Debitor borcları üzrə əlavə pul vəsaitlərinin bərpası gözlənilmədikdə, debitor borcları müvafiq ehtiyatlara silinir.

Dəyərsizləşmə üzrə zərərlərə qarşı qiymətləndirilən debitor borcları üzrə pul vəsaitlərinin gələcək hərəkəti həmin aktivlərin müqavilə üzrə pul vəsaitlərinin hərəkətinə, rəhbərliyin keçmişdə baş vermiş zərər halları nəticəsində vaxtı keçəcək məbləğlərin həcmi ilə münasibətdə təcrübəsinə və vaxtı keçmiş məbləğlərin geri ödənilməsinə əsasən təxmin edilir. Keçmiş dövrlərə təsir göstərməyən cari şəraitin təsirini əks etdirmək və cari dövrdə mövcud olmayan keçmiş şəraitin təsirini aradan qaldırmaq məqsədilə əvvəlki təcrübə müşahidə edilə bilən cari məlumatlara əsasən tənzimlənir.

**İstifadə olunmamış məzuniyyət üçün ehtiyat**

Qrupun istifadə olunmamış məzuniyyətə ehtiyat hesablamaq siyasəti mövcuddur. Bu siyasətə əsasən işçi öz məzuniyyət balansını mütləq istifadə etməlidir. Qrup istifadə olunmamış məzuniyyətə görə işçiyə xüsusi hallar istisna olmaqla, kompensasiya ödənişi etmir.

**İcarə müddətinin müəyyən edilməsi**

16 saylı MHBS-nin tətbiqi aktivlər və icarə öhdəliklərindən istifadə hüququna dair mülahizələr aparmağı tələb edir. İcarə müddətini təyin edərkən, Qrup yeniləmə seçimlərini həyata kecirmək üçün iqtisadi stimul yaradan bütün amilləri və halları (və ya ləğvetmə seçimlərini etməməyi) nəzərə alır. Müqavilənin icarə elementlərinə malik olub-olmadığını qiymətləndirmək də mühakimə tələb edir. İcarə öhdəliklərini hesablamaq məqsədilə istifadə olunan müvafiq diskont dərəcəsini müəyyənləşdirmək üçün təxminlərin edilməsi tələb olunur.

**Fasiləsizlik prinsipi**

Rəhbərlik hesab edir ki, Qrup fəaliyyətini fasiləsizlik prinsipi əsasında davam etdirəcək. Bu təxmini etdikdə rəhbərlik, Qrupun cari niyyətlərini və maliyyə vəziyyətini nəzərə almışdır. Rəhbərlik hesab edir ki, Azərbaycan Respublikası dövləti tərəfindən təmin edilən himayənin mövcud olması sayəsində Qrup yaxın gələcəkdə fəaliyyətini davam etdirmək iqtidarında qalacaqdır. Bu şərtlər Qrupun gələcək on iki ay ərzində fəaliyyətini davam etdirmək qabiliyyətində olacağına dəlalət edir.

## 6. TORPAQ, TİKİLİ VƏ AVADANLIQLAR

Torpaq, tikili və avadanlıqların balans dəyərində hərəkəti aşağıdakı kimi olmuşdur:

| | Torpaq | Binalar və tikililər | Obyektlər | Ötürücü qurğular | Maşın və avadanlıqlar | Nəqliyyat vasitələri | Dəftərxana və ofis avadanlıqlar | Tamamlan-mamış tikililər | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Maya dəyəri** | | | | | | | | | | |
| **01.01.2023-cü il tarixinə** | 21,704 | 103,034 | 87,137 | 936,183 | 192,678 | 41,594 | 6,371 | 5,563,898 | 6,214 | 6,958,813 |
| Əlavələr | - | - | - | 940 | - | - | - | 200,282 | 3 | 201,225 |
| Əvəzsiz verilmiş aktivlər | - | 4,021 | 1,802 | 24,764 | 657 | (50) | - | 49 | - | 31,243 |
| Köçürmələr | - | - | - | 267,100 | - | - | - | (267,100) | - | - |
| **31.12.2023-cü il tarixinə** | 21,704 | 107,055 | 88,939 | 1,228,987 | 193,335 | 41,544 | 6,371 | 5,497,129 | 6,217 | 7,191,281 |
| Əlavələr | - | 499 | 2,406 | 7,016 | 1,369 | 82 | 1 | 739,257 | - | 750,629 |
| Əvəzsiz verilmiş aktivlər | - | 6,606 | 22,984 | 35,833 | 19,878 | - | 8 | - | - | 85,310 |
| Təhvil verilmişdir | - | - | - | - | - | - | - | (2,154,916) | - | (2,214,916) |
| Köçürmələr | - | 219,457 | 225,719 | 2,094,453 | 435,124 | 2,215 | 2,402 | (2,979,370) | - | - |
| **31.12.2024-cü il tarixinə** | 21,704 | 333,617 | 340,049 | 3,366,289 | 649,706 | 43,841 | 8,782 | 1,102,099 | 6,215 | 5,872,302 |
| **Köhnəlmə və dəyərsizləşmə** | | | | | | | | | | |
| **01.01.2023-cü il tarixinə** | (16,951) | (69,369) | (64,267) | (595,851) | (144,464) | (38,664) | (5,463) | (4,946,505) | (5,692) | (5,887,226) |
| Köhnəlmə xərci | - | (1,422) | (1,868) | (22,337) | (10,745) | (513) | (96) | - | (83) | (37,064) |
| Dəyərsizləşmə xərci | - | (5,930) | (3,729) | (99,873) | (6,234) | (38) | (133) | (56,561) | (71) | (172,918) |
| **31.12.2023-cü il tarixinə** | (16,951) | (76,721) | (69,864) | (718,061) | (161,443) | (39,564) | (5,692) | (5,003,066) | (5,846) | (6,097,208) |
| Köhnəlmə xərci | - | (1,303) | (1,712) | (20,470) | (9,850) | (470) | (88) | - | (75) | (33,968) |
| Dəyərsizləşmə xərci | - | (4,860) | (3,056) | (95,329) | (5,109) | (317) | (109) | (61,388) | (58) | (170,226) |
| Köçürmələr | - | (215,130) | (223,908) | (1,999,131) | (424,013) | - | (1,429) | 2,863,612 | - | - |
| Təhvil verilmiş əsas vəsaitlər üzrə | - | - | - | - | - | - | - | 1,387,845 | - | 1,387,845 |
| **31.12.2024-cü il tarixinə** | (16,951) | (298,014) | (298,541) | (2,832,991) | (600,415) | (40,351) | (7,318) | (812,997) | (5,977) | (4,913,555) |
| **Xalis balans dəyəri** | | | | | | | | | | |
| **31.12.2024-cü il tarixinə** | 4,753 | 35,603 | 41,508 | 563,298 | 49,291 | 3,490 | 1,464 | 259,102 | 238 | 958,747 |
| **31.12.2023-cü il tarixinə** | 4,753 | 30,334 | 19,075 | 510,926 | 31,892 | 1,980 | 679 | 494,063 | 371 | 1,094,073 |

**Dəyərsizləşmə xərci**

Qrup 31 dekabr 2024-cü il və 2023-ci il tarixlərində başa çatmış illər üzrə torpaq, tikili və avadanlıqlara müvafiq olaraq 170,226 min AZN və 172,918 min AZN məbləğində dəyərsizləşmə xərci tanımışdır.

**Əvəzsiz verilmiş aktivlər**

31 dekabr 2024-cü il və 2023-cü il tarixlərində başa çatmış illər ərzində Qrupa müxtəlif dövlət və kommersiya təşkilatları tərəfindən müəyyən aktivlər (ötürücü borular və digər infrastrukturlar, nəqliyyat vasitələri və s.) əvəzsiz olaraq verilmişdir. 31 dekabr 2024-cü il və 2023-cü il tarixlərinə əvəzsiz verilmiş aktivlərin ədalətli dəyərinin müəyyən edilməsinə Qrup müstəqil qiymətləndiricini cəlb etmişdir. Əvəzsiz verilmiş aktivlərin ədalətli dəyəri 85,310 min AZN məbləğində (2023-cü il: 31,243 AZN) müəyyən edilmişdir. Dövlət təşkilatlarından alınmış aktivlər konsolidə edilmiş maliyyə hesabatlarında Dövlət investisiyaları kimi tanınmışdır (14 saylı Qeydə nəzər yetirin).

## 7. AKTİVDƏN İSTİFADƏ HÜQUQU VƏ İCARƏ ÖHDƏLİKLƏRİ

Qrup ofis sahələri icarəyə götürür. İcarə müqaviləsi 2-10 il müddətinə bağlanır, lakin bu müddətin uzadılması hüququnu da nəzərdə tutur.

Müqavilələrə icarə və qeyri-icarə komponentləri daxil ola bilər. Qrup icarə komponentlərini qeyri-icarə komponentlərindən ayırmaq əvəzinə, onları vahid icarə komponenti kimi uçota almaq üsulunu seçmişdir. İcarə şərtləri fərdi qaydada nəzərdən keçirilir və icarə müqavilələrinə bir çox fərqli şərtlər daxil edilir.

İcarə müqavilələrində icarəyə verənin icarə predmeti olan aktivlər ilə bağlı təminat hüququndan başqa heç bir xüsusi şərt nəzərdə tutulmur. İcarə predmeti olan aktivlər kreditlər üzrə təminat kimi istifadə edilə bilməz. Qrupun icarə müqavilələrinə icarə müddətinin uzadılması və xitam verilməsi hüquqları daxil edilmişdir. Bu hüquqlar Qrupun fəaliyyətində istifadə olunan aktivlərin idarə olunmasında əməliyyat çevikliyinin artırılması üçün tətbiq olunur. İcarə müddətinin uzadılma və xitam vermə hüquqlarının əksəriyyəti Qrupun və müvafiq icarəyə verən tərəfindən icra edilə bilər.

01 yanvar 2019-cu il tarixindən etibarən icarə müqavilələri icarəyə götürülmüş aktivin Qrupun istifadəsi üçün hazır olduğu tarixdən başlayaraq müvafiq öhdəliklə birlikdə aktivdən istifadə hüququ kimi tanınır.

İlin əvvəli və ilin sonuna icarə öhdəlikləri məbləğinin maliyyələşdirmə fəaliyyətində müvafiq nağd və nağdsız dəyişikliklərlə uyğunlaşdırılması aşağıdakı kimi göstərilir:

| | Ofis sahələri | Digər | Cəmi (yenidən təqdim edilmiş) |
|---|---|---|---|
| **01 yanvar 2023-cü il tarixinə balans dəyəri** | **1,234** | **-** | **1,234** |
| İl üzrə əlavələr | 86 | 94 | 180 |
| İl üzrə modifikasiya | 836 | - | 836 |
| İl üzrə hesablanan faiz xərci | 121 | 2 | 123 |
| İl üzrə hesablanan faiz xərcinin ödənilməsi | (121) | (2) | (123) |
| Əsas məbləğin ödənilməsi | (767) | (45) | (812) |
| **31 dekabr 2023-cü il tarixinə balans dəyəri** | **1,389** | **49** | **1,438** |
| İl üzrə əlavələr | 45 | - | 45 |
| İl üzrə modifikasiya | 720 | | 721 |
| İl üzrə hesablanan faiz xərci | 86 | 1 | 87 |
| İl üzrə hesablanan faiz xərcinin ödənilməsi | (86) | (1) | (87) |

| | | | |
|---|---|---|---|
| Əsas məbləğin ödənilməsi | (1034) | (14) | 1048 |
| **31 dekabr 2024-cü il tarixinə balans dəyəri** | **1120** | **35** | **1,155** |

31 dekabr 2024-cü il tarixinə gələcək minimum icarə ödənişləri:

| | **1 il ərzində** | **1 ildən çox** | **Cəmi** |
|---|---|---|---|
| Minimum icarə ödənişləri | 793 | 510 | 1303 |
| Maliyyə xərci | (78) | (70) | (148) |
| **Xalis dəyər** | **715** | **440** | **1,155** |

Tanınmış icarə öhdəlikləri ödəniş müddəti üzrə aşağıdakı kimi təsnif edilir:

| | **31 dekabr 2024-cü il** | **31 dekabr 2023-cü il** |
|---|---|---|
| Qısamüddətli hissə | 720 | 879 |
| Uzunmüddətli hissə | 435 | 559 |
| **Cəmi icarə öhdəlikləri** | **1,155** | **1,438** |

## 8. VERGİLƏR ÜZRƏ DEBİTOR BORCU

31 dekabr 2024-cü il və 2023-cü il tarixlərinə vergilər üzrə debitor borcları əsasən ilin sonuna ödənilməmiş və beləliklə də vergi haqqında bəyannamələrdə əvəzləşdirilməmiş alışlara və satıcının müvafiq xidmətləri göstərdikdən sonra əvəzləşdirilə bilən tikinti işləri üzrə avans ödənişlərinə aid 14,952 min AZN (31 dekabr 2023-cü il: 14,362 min AZN) ƏDV üzrə debitor borcundan ibarətdir.

Vergilər üzrə debitor borcu gələcək vergi öhdəlikləri ilə əvəzləşdirmə vasitəsilə və ya vergi orqanları tərəfindən birbaşa ödənilmiş pul vəsaitləri kimi bərpa olunur.

## 9. MAL-MATERİAL EHTİYATLARI

Mal-material ehtiyatları aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Materiallar | 4,379 | 5,935 |
| Mallar | 2,696 | 4,286 |
| Satış üçün mallar | 3,704 | 2,234 |
| Ehtiyat hissələri | 1,895 | 1,660 |
| Xammal | 415 | 565 |
| 5Yanacaq və sürtkü maddələri | 151 | 66 |
| Köhnəlmiş və zədələnmiş mal-material üzrə dəyərsizləşmə ehtiyatı | (849) | (768) |
| **Cəmi mal-material ehtiyatları** | **12,391** | **13,978** |

Köhnəlmiş və zədələnmiş mal-material üzrə dəyərsizləşmə ehtiyatında hərəkət aşağıdakı kimi olmuşdur:

| | 2024-cü il | 2023-cü il |
|---|---|---|
| **01 yanvar tarixinə** | (768) | (668) |
| Dəyərsizləşmə xərci | (81) | (100) |
| **31 dekabr tarixinə** | (849) | (768) |

## 11. TİCARƏT VƏ DİGƏR DEBİTOR BORCLARI

Ticarət və digər debitor borcları aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Suyun satışından debitor borcları | 166,286 | 209,331 |
| Çıxılsın: dəyərsizləşmə üzrə ehtiyat | (147,902) | (184,877) |
| **Cəmi ticarət debitor borcları** | **18,384** | **24,454** |
| Digər debitor borcları | 2,493 | 3,339 |
| **Cəmi ticarət və digər debitor borcları** | **20,877** | **27,793** |

31 dekabr 2024-cü il tarixinə ticarət debitor borcları əsasən, müvafiq olaraq 75,050 AZN və 91,236 AZN (31 dekabr 2023-cü il tarixinə, müvafiq olaraq, 95,097 AZN və 114,234 AZN) məbləğlərində qeyri-əhali və əhaliyə verilən suyun satışı üzrə debitor borclarından ibarət olmuşdur. Suyun satışları üzrə ümumi kredit şərtlərinə billinq tarixindən sonra 30 gün ərzində ödəniş etmə tələbi daxildir. Suyun satış tarifləri dövlət qanunvericiliyinə uyğundur və Azərbaycan Respublikasının Tarif Şurası tərəfindən nizamlanır.

Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatda hərəkət aşağıdakı kimi olmuşdur:

| | 2024-cü il | 2023-cü il |
|---|---|---|
| **01 yanvar tarixinə** | (184,877) | (199,729) |
| Silinmə | 36,975 | 19,760 |
| Dəyərsizləşmə xərci | | (4,908) |
| 31 dekabr tarixinə | (147,902.) | (184,877) |

Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş ticarət və digər debitor borclarının müddət üzrə təhlili:

| | Cəmi | <30 gün | Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş | Fərdi və məcmu şəkildə dəyərsizləşmiş |
|---|---|---|---|---|
| 31 dekabr 2024-cü il | 173,462 | 25,560 | - | 147,902 |
| 31 dekabr 2023-ci il | 212,670 | 27,793 | - | 184,877 |

## 12. PUL VƏSAİTLƏRİ VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ VƏ MƏHDUDİYYƏT QOYULMUŞ PUL VƏSAİTLƏRİ

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Köçürülməkdə olan pul vəsaitləri | 6,059 | 2,862 |
| Müxbir və hesablaşma hesabları | 1,376 | 10,343 |
| Kassada olan pul vəsaitləri | 4 | 5 |
| **Cəmi pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **7,439** | **13,210** |

İlkin valyutada pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| AZN ilə bank qalıqları | 7,400 | 13,181 |
| ABŞ dolları ilə bank qalıqları | 8 | 5 |
| Avro ilə bank qalıqları | 27 | 19 |
| Kassada olan pul vəsaitləri | 4 | 5 |
| **Cəmi pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **7,439** | **13,210** |

EOKZ qiymətləndirilməsi üzrə pul vəsaitləri və onların ekvivalentlərinin qalıqları 1-ci mərhələyə daxil edilir.

Məhdudiyyət qoyulmuş pul vəsaitləri aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| ƏDV üzrə depozit hesabı | 308 | 1,654 |
| **Cəmi məhdudiyyət qoyulmuş pul vəsaitləri** | **308** | **1,654** |

Dövlət Xəzinədarlığında hesab Dövlət tərəfindən imzalanmış əmrə əsasən yaradılmışdır və Azərbaycan Respublikasının Dövlət Xəzinədarlığında saxlanılır. Qrupun əsasən özünün tikinti layihələrinin maliyyələşdirilməsi üçün istifadə olunan hesab üzrə birbaşa nəzarəti yoxdur və Dövlət Xəzinədarlığında verilən səlahiyyətli sorğulara əsasən Dövlət tərəfindən maliyyələşdirilir. Dövlət Xəzinədarlığı tərəfindən təsdiq olunmalı müvafiq vəsaitlər birbaşa təchizatçının hesabına köçürülür. Qrup bu ayırmaları Qrupun kapitalı daxilində Dövlət investisiyaları kimi uçota alır.

01 yanvar 2008-ci il tarixindən başlayaraq vergi orqanları ƏDV depozit hesablarını təqdim etmişdir və bu hesablar vasitəsilə əvəzləşdirilən və hesablanan ƏDV üzrə icbari ödəmələri tətbiq etmişdir. Vergi qanunvericiliyinə uyğun olmaq üçün Qrup ƏDV üzrə depozit hesabını açmışdır.

## 13. PAY KAPİTALI

Qrupun səhm kapitalı aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2024-cü il | | 31 dekabr 2023-cü il | |
|---|---|---|---|---|
| | Payların sayı | Pay kapitalı | Payların sayı | Pay kapitalı |
| İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti PHŞ | 20,000,000 | 2 400,427 | 20,000,000 | 400,000 |
| **Törəmə müəssisələr** | | | | |
| "Birləşmiş Sukanal" MMC | 4,173,128 | 83,463 | 4,173,128 | 83,463 |
| "Gəncə Sukanal" TSC | 383,640 | 7,673 | 383,640 | 7,673 |
| "Şəki Sukanal" TSC | 95,663 | 1,914 | 95,663 | 1,914 |
| "Sutikinti" İdarəsi | 100 | 1,423 | 100 | 1,423 |
| "Sukanal" Elmi Tədqiqat Layihələşdirmə İnstitutu | - | 131 | - | 131 |
| "Ağdaş Sukanal" TSC | - | - | - | - |
| "Göyçay Sukanal" TSC | - | - | - | - |

Qrupun əsas şirkəti olan İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti PHŞ dövlət müəssisəsi hüquqi statusuna malikdir. Qrupa hər birinin özünün səhm kapitalı olan 6 ayrı hüquqi müəssisə (2022-ci il: 6) daxildir. İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti PHŞ -nin bütün törəmə müəssisələrində tam nəzarət hüququ və 100% iştirak payı var.

## 14. DÖVLƏT İNVESTİSİYALARI

Dövlət investisiyaları aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Qeyri-maliyyə aktivləri formasında investisiyalar | 244,430 | 444,989 |
| Dövlət büdcəsindən birbaşa maliyyələşdirilmiş investisiyalar | 365,442 | 607,459 |
| Dövlət zəmanəti ilə beynəlxalq maliyyə təşkilatları tərəfindən maliyyələşdirilmiş investisiyalar | 156,626 | 164,178 |
| **Cəmi dövlət investisiyaları** | 766,498 | 1,216,626 |

Dövlət investisiyalarının qalığı Qrupun müxtəlif əsaslı və digər məsrəflərini maliyyələşdirmək üçün Dövlət Büdcəsinin vəsaitləri, beynəlxalq maliyyə təşkilatları tərəfindən maliyyələşdirilən Dövlət borcları, eləcə də Dövlət tərəfindən Qrupa əvəzsiz olaraq verilmiş qeyri-maliyyə aktivlərindən ibarət olmuşdur.

7 saylı Qeyddə göstərildiyi kimi, 2024-cü il ərzində müxtəlif büdcə təşkilatları tərəfindən keçid tarixində əvəzsiz verilmiş qeyri-maliyyə aktivlərinin ədalətli dəyəri 85,311 AZN (2023-cü il: 31,243 AZN) məbləğində olmuşdur.

## 15. FAİZ HESABLANAN KREDİTLƏR VƏ BORC ÖHDƏLİKLƏRİ

Faiz hesablanan kreditlər və borc öhdəlikləri aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Maliyyə Nazirliyi tərəfindən verilən dövlət kreditləri | 159,348 | 151,559 |
| Beynəlxalq maliyyə qurumları tərəfindən maliyyələşdirilən dövlət kreditləri | 83,111 | 90,050 |
| **Cəmi kreditlər** | 242,459 | 241,609 |

Qrupun kreditlərinin cari hissəsi aşağıdakı maliyyə qurumları tərəfindən təqdim olunmuşdur:

| Maliyyə qurumu | Müqavilə üzrə faiz dərəcəsi | İlkin valyuta | Son bitmə tarixi | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|---|---|
| KfW | 0.75% | Avro | iyun 2040-cı il | 861 | 882 |
| KfW | 0.75% | Avro | dekabr 2045-ci il | 1,580 | 1,729 |
| Natixis | 2.45% | Avro | sentyabr 2030-cu il | 3,877 | 4,824 |
| Asiya İnkişaf Bankı | 2.50% | XBH | noyabr 2036-cı il | 1,203 | 5,503 |
| Maliyyə Nazirliyi | 0% | AZN | dekabr 2027-ci il | 3,509 | 2,553 |
| Maliyyə Nazirliyi | 0% | ABŞ dolları | mart 2028-ci il | 2,986 | 2,593 |
| Maliyyə Nazirliyi | 0% | ABŞ dolları | avqust 2028-ci il | 2,796 | 4,140 |
| **Cəmi qısamüddətli kreditlər və uzunmüddətli kreditlərin cari hissəsi** | | | | 16,812 | 22,224 |

Qrupun kreditlərinin uzunmüddətli hissəsi aşağıdakı maliyyə qurumları tərəfindən təqdim olunmuşdur.

| Maliyyə qurumu | Müqavilə üzrə faiz dərəcəsi | İlkin valyuta | Son bitmə tarixi | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|---|---|
| KfW | 0.75% | Avro | iyun 2040-cı il | 13,369 | 14,062 |
| KfW | 0.75% | Avro | dekabr 2045-ci il | 34,603 | 35,228 |
| Natixis | 2.45% | Avro | sentyabr 2030-cu il | 19,398 | 18,533 |
| Asiya İnkişaf Bankı | 2.5% | XBH | noyabr 2036-cı il | 8,220 | 9,289 |
| Maliyyə Nazirliyi | 0% | AZN | dekabr 2027-ci il | 14,971 | 8,341 |
| Maliyyə Nazirliyi | 0% | ABŞ dolları | mart 2028-ci il | 23,780 | 24,084 |
| Maliyyə Nazirliyi | 0% | ABŞ dolları | avqust 2028-ci il | 16,705 | 16,895 |
| Maliyyə Nazirliyi | 0% | ABŞ dolları | avqust 2030-cu il | 16,426 | 15,695 |
| Maliyyə Nazirliyi | 0% | ABŞ dolları | avqust 2031-ci il | 14,939 | 14,939 |
| Maliyyə Nazirliyi | 0% | ABŞ dolları | avqust 2027-ci il | 13,325 | 13,325 |
| Maliyyə Nazirliyi | 0% | ABŞ dolları | avqust 2028-ci il | 19,816 | 17,816 |
| Maliyyə Nazirliyi | 1% | ABŞ dolları | noyabr 2031-ci il | 8,896 | 8,896 |
| Maliyyə Nazirliyi | 1% | Avro | noyabr 2031-ci il | 6,625 | 7,014 |
| Maliyyə Nazirliyi | 1% | ABŞ dolları | noyabr 2032-ci il | 2,773 | 2,773 |
| Maliyyə Nazirliyi | 1% | Avro | noyabr 2031-ci il | 5,571 | 5,899 |
| Maliyyə Nazirliyi | 1% | Avro | noyabr 2029-cu il | 6,230 | 6,596 |
| **Cəmi uzunmüddətli kreditlər** | | | | 225,647 | 219,385 |

Qrupun kreditlərinin üzləşdirilməsi aşağıdakı kimi olmuşdur:

| | 01 yanvar 2024-cü il | Nağd hesablaşmalar | Qeyri-nağd hesablaşmalar<br>Dövlət tərəfindən ödənilən | Qeyri-nağd hesablaşmalar<br>Hesablanmış faiz, məzənnə fərqi və digər | 31 dekabr 2024-cü il |
|---|---|---|---|---|---|
| Faiz hesablanan kreditlər və borc öhdəlikləri | 241,609 | - | (6,326) | 7,176 | 242,459 |
| **Cəmi kreditlər** | 241,609 | - | (6,326) | 7,176 | 242,459 |

| | 01 yanvar 2023-cü il | Nağd hesablaşmalar | Qeyri-nağd hesablaşmalar<br>Dövlət tərəfindən il ödənilən | Qeyri-nağd hesablaşmalar<br>Hesablanmış faiz, məzənnə fərqi və digər | 31 dekabr 2023-cü |
|---|---|---|---|---|---|
| Faiz hesablanan kreditlər və borc öhdəlikləri | 232,681 | - | (7,552) | 16,480 | 241,609 |
| **Cəmi kreditlər** | 232,681 | - | (7,552) | 16,480 | 241,609 |

**Beynəlxalq maliyyə qurumlarından kreditlər**

Beynəlxalq maliyyə qurumlarından kreditlər Azərbaycan Respublikasının su təchizatı sisteminin inkişafı və təkmilləşdirilməsi ilə bağlı layihələrin maliyyələşdirilməsi üçün birbaşa Dövlətə verilən kreditləri əks etdirir. Dövlət öz növbəsində eyni şərtlərlə Dövlət və Qrup arasında təkrar maliyyələşdirmə haqqında razılaşma vasitəsilə Qrupa bu kreditlər üzrə müvafiq hüquq və öhdəlikləri ötürmüşdür.

**KfW-dan kreditlər**

25 sentyabr 2006-cı il tarixində Almaniya hökumətinə məxsus inkişaf bankı Kreditanstalt für Wiederaufbau ("KfW") tərəfindən Dövlətə illik effektiv faiz dərəcələri 0.75% və 0.75% olan və ödəmə müddəti 2040-cı il və 2045-ci ildə başa çatacaq, müvafiq olaraq, 14,827 Avro (27,824 AZN) və 26,350 Avro (49,448 AZN) məbləğlərində iki kredit verilmişdir. Kreditlər "Bələdiyyə infrastrukturu üçün Açıq Proqram" layihəsinin maliyyələşdirilməsi üçün verilmişdir.

**Natixis-dən kredit**

30 sentyabr 2006-cı il tarixində Fransız korporativ və investisiya bankı olan Natixis Fransa Respublikası adından Dövlətə illik effektiv faiz dərəcəsi 2.45% olan və ödəmə müddəti 2030-cu ildə başa çatacaq 35,000 Avro (65,681 AZN) məbləğində kredit verilmişdir. Kredit "Hövsan tullantılarının idarəedilməsi sisteminin, Zığ nasos stansiyasının rekonstruksiyası" adlı layihənin maliyyələşdirilməsi üçün verilmişdir.

**Asiya İnkişaf Bankından kredit**

29 noyabr 2005-ci il tarixində Asiya İnkişaf Bankı ("AİB") tərəfindən Dövlətə illik effektiv faiz dərəcəsi 2.5% olan və ödəmə tarixi 2036-cı ildə başa çatacaq 5,428 XBH (12,408 AZN) məbləğində kredit verilmişdir. Kredit "Şəhər su təchizatı və kanalizasiya layihəsi" adlı layihənin maliyyələşdirilməsi üçün verilmişdir.

**Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən alınmış kreditlər**

29 noyabr 2016-cı il tarixində Qrup Maliyyə Nazirliyindən 17,382 ABŞ dolları (29,549 AZN) və 11,943 AZN məbləğlərində iki faizsiz kredit almışdır. Müqavilələrə görə kreditlərin geri qaytarılması ildə iki dəfə 8 bərabər hissə olmaqla 2024-cü ilin sentyabr ayında başlayaraq 2027-ci ilin dekabr ayında başa çatacaq.

07 iyun 2017-ci il tarixində Qrup Maliyyə Nazirliyindən 11,183 ABŞ dolları (19,011 AZN) məbləğində faizsiz kredit almışdır. Müqaviləyə görə kreditin geri qaytarılması ildə iki dəfə 8 bərabər hissə olmaqla 2025-ci ilin fevral ayında başlayaraq 2028-ci ilin avqust ayında başa çatacaq.

Qrup Maliyyə Nazirliyindən 2017-ci ilin sonunda 11,280 ABŞ dolları (19,176 AZN) məbləğində faizsiz kredit almışdır. Müqaviləyə görə kreditin geri qaytarılması ildə iki dəfə 8 bərabər hissə olmaqla 2027-ci ilin fevral ayında başlayaraq 2030-cu ilin avqust ayında başa çatacaq.

Qrup Maliyyə Nazirliyindən 2018-ci ilin sonunda 11,390 ABŞ dolları (19,363 AZN) məbləğində faizsiz kredit almışdır. Müqaviləyə görə kreditin geri qaytarılması ildə iki dəfə 8 bərabər hissə olmaqla 2028-ci ilin fevral ayında başlayaraq 2031-ci ilin avqust ayında başa çatacaq.

Qrup Maliyyə Nazirliyindən 2019-cu ilin sonunda 10,959 ABŞ dolları (18,630 AZN) məbləğində faizsiz kredit almışdır. Müqaviləyə görə kreditin geri qaytarılması ildə iki dəfə 8 bərabər hissə olmaqla 2024-cü ilin fevral ayında başlayaraq 2027-ci ilin avqust ayında başa çatacaq.

Qrup Maliyyə Nazirliyindən 2020-ci ilin sonunda 11,206 ABŞ dolları (19,050 AZN) məbləğində faizsiz kredit almışdır. Müqaviləyə görə kreditin geri qaytarılması ildə iki dəfə 8 bərabər hissə olmaqla 2025-ci ilin fevral ayında başlayaraq 2028-ci ilin avqust ayında başa çatacaq.

Qrup Maliyyə Nazirliyindən 2021-ci ilin sonunda 6,286 ABŞ dolları (10,686 AZN) və 4,208 min AVRO (7,897 AZN) məbləğində illik effektiv faiz dərəcəsi 1% olan kredit almışdır. Müqaviləyə görə kreditin geri qaytarılması ildə iki dəfə 8 bərabər hissə olmaqla 2027-ci ilin may ayında başlayaraq 2031-ci ilin noyabr ayında başa çatacaq.

Qrup Maliyyə Nazirliyindən 2022-ci ilin sonunda 2,350 ABŞ dolları (3,995 min AZN) və 4,142 min AVRO (7,773 min AZN) məbləğində illik effektiv faiz dərəcəsi 1% olan kredit almışdır. Müqaviləyə görə kreditin geri qaytarılması ildə iki dəfə 8 bərabər hissə olmaqla 2028-ci ilin may ayında başlayaraq 2032-ci ilin noyabr ayında başa çatacaq.

Qrup Maliyyə Nazirliyindən 2023-cü ilin sonunda 4,078 Avro (7,652 min AZN) məbləğində illik effektiv faiz dərəcəsi 1% olan kredit almışdır. Müqaviləyə görə kreditin geri qaytarılması ildə iki dəfə 10 bərabər hissə olmaqla 2025-ci ilin may ayında başlayaraq 2029-ci ilin noyabr ayında başa çatacaq.

2024-cü ildə Dəniz suyunun duzsuzlaşdırılması layihəsinə dövlət büdcəsi hesabına əsaslı vəsait qoyluşu olub 1,001,700.00 ( bir milyon min yeddi yüz manat) ayrılmışdır.

## 16. EHTİYATLAR

Qrup aşağıda qeyd edilən maddələr üzrə ehtiyat hesablamışdır:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| İstifadə olunmamış məzuniyyət günləri | 2,368 | 7,485 |
| Məhkəmə işləri üzrə iddia | 3,487 | 3,028 |
| Digər | 107 | 109 |
| **Cəmi ehtiyatlar** | **5,961** | **10,622** |

**Məhkəmə işləri üzrə iddia**

Məhkəmə işləri üzrə ehtiyatlar əsas etibarilə Qrupa qarşı cari tikinti layihələri ilə bağlı yaranmış faktiki və ehtimal olunan iddiaları əks etdirir.

## 17. VERGİLƏR VƏ CƏRİMƏLƏR ÜZRƏ XALİS KREDİTOR BORCU

Vergilər və cərimələr üzrə xalis kreditor borcu aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Bəyan edilməmiş ƏDV | 17,137 | 22,277 |
| ƏDV | 8,810 | 11,972 |
| İqtisadi və maliyyə cərimələri | 4,338 | 6,883 |
| Əmlak vergisi | (752) | 5,087 |
| Mənbədən tutulan vergi | 696 | 558 |
| Mənfəət vergisi | 459 | 530 |
| Torpaq vergisi | 25 | (282) |
| Gəlir vergisi | (7,331) | (571) |
| **Cəmi vergilər və cərimələr üzrə xalis kreditor borcu** | **23,382** | **46,454** |

İqtisadi və maliyyə cərimələri yerli maliyyə hesabatlarının gec təqdim edilməsi, yerli hesabatlarda nöqsanlar və digər sanksiyalardan ibarətdir.

## 18. TİCARƏT VƏ DİGƏR KREDİTOR BORCLARI

Ticarət və digər kreditor borcları aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Tikinti ilə bağlı kreditor borcları | 84,154 | 68,040 |
| Ticarət kreditor borcları | 52,357 | 51,550 |
| Digər kreditor borcları | 14,328 | 13,024 |
| **Cəmi maliyyə kreditor borcları** | **150,839** | **132,614** |
| Sosial Müdafiə Fonduna ödəniləcək məbləğlər | 36,362 | 26,305 |
| İşçilərə ödəniləcək məbləğlər | 4,696 | 9,677 |
| **Cəmi ticarət və digər kreditor borcları** | **191,897** | **168,596** |

Qrupun cəmi kreditor borcları tikinti xidmətlərinə görə kreditor borcları və təchizatçılar tərəfindən Qrupa təqdim edilmiş material, nəqliyyat, su təchizatı, enerji və kommunal xidmətlərə görə kreditor borclarından ibarətdir

## 19. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ QALIQLAR VƏ ƏMƏLİYYATLAR

**Baş rəhbərliyə ödənişlər**

Qrupun baş rəhbərliyinə sədr və beş müavin daxildir. Sədr və müavinlər Azərbaycan Dövlət su Ehtiyatları Agentliyinin sədri tərəfindən təyin olunur. Baş rəhbərliyin üzvləri təsdiqlənmiş əməkhaqqı cədvəlinə uyğun olaraq Qrup tərəfindən əmək haqqı və mükafatlarla təmin edilir. 2024-cü il ərzində baş rəhbərliyə cəmi ödənişlər 426 AZN (2023-cü il: 707 AZN) təşkil etmişdir.

**Əhəmiyyətli əməliyyatlar**

Dövlətlə bütün əməliyyatlar 13-cü, 14-cü, 15-ci qeydlərdə açıqlanır. Qrup dövlət ilə əlaqəsi olan müəssisələr üçün açıqlama tələb ilə bağlı "Əlaqəli Tərəflərlə bağlı Qeydlər" adlı 24 saylı BMUS-un 25-ci bəndində qeyd olunan azad olunma imkanından istifadə etmişdir.

Hesabat verən müəssisə əlaqəli tərəflərlə əməliyyatlar və öhdəliklər, o cümlədən qalıqlar ilə bağlı "Əlaqəli Tərəflərlə bağlı Qeydlər" adlı 24 saylı BMUS-un 18-ci bəndində qeyd olunmuş açıqlama tələblərindən azad edilir:

(a) hesabat verən müəssisənin üzərində birgə nəzarət və ya əhəmiyyətli nəzarət təsirinə sahib olan hökumət; və
(b) hesabat verən müəssisə və başqa müəssisə üzərində həmin dövlətin nəzarəti və ya birgə nəzarəti və ya əhəmiyyətli təsiri olduğu üçün əlaqəli olduğu başqa bir müəssisə.

Dövlət müəssisələri ilə əməliyyatlara elektrik enerjisinin alınması, dövlət investisiyaları, digər xidmətlərin alınması və göstərilməsi və s. daxildir.

Qrupun əhəmiyyətli əməliyyatlar apardığı və ya hesablaşmalar üzrə əhəmiyyətli qalıqlara malik olduğu əlaqəli tərəflərlə münasibətlər aşağıda göstərilir. Əlaqəli tərəflərə satışlar və onlardan alışlar bazar dərəcəsindən aşağı faizlə verilmiş Dövlət kreditlərindən başqa kommersiya cəhətdən bir-birindən asılı olmayan tərəflər arasındakı əməliyyatlarda üstünlük təşkil edən şərtlərə uyğun şərtlərlə aparılır. İlin sonuna olan qalıqlar zəmanətsizdir və borc öhdəlikləri istisna olmaqla faizsizdir. Əlaqəli tərəflər üzrə debitor və ya kreditor borclarına dair heç bir zəmanət təqdim olunmamış və ya alınmamışdır.

## 20. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

**Maliyyə riski amilləri**

Fəaliyyətin adi gedişində Qrup kredit, likvidlik və bazar risklərinə məruz qalır. Bazar riskləri alınan və satılan malların dəyişkən qiymətləri, digər xammalların qiymətləri, valyuta məzənnələri və faiz dərəcələri dəyişmələri nəticəsində yaranır. Bazar qiymətlərindəki bu cür dəyişikliklər dərəcəsindən asılı olaraq, Qrupun maliyyə vəziyyətinin dəyişməsinə səbəb ola bilər. Qrupun ümumi risk idarəetmə proqramı maliyyə bazarlarının qeyri-müəyyənliklərini əhatə edir və Qrupun maliyyə fəaliyyətinə potensial mənfi təsiri azaltmağı nəzərdə tutur. Maliyyə nəticələrinə təsir edə bilən müxtəlif risklərin səmərəli şəkildə idarə edilməsi üçün Qrupun əsas strategiyası güclü maliyyə mövqeyinin qorunub saxlanmasından ibarətdir. İdarəetmə üzrə müəyyən edilmiş rəsmi prosedurların olmamasına baxmayaraq, Qrupun rəhbərliyi maliyyə risklərini cari bazar mövqeyinə istinadən müəyyən edir və qiymətləndirir.

**Valyuta riski**

Qrup fəaliyyətin adi gedişində müxtəlif xarici valyutalar üzrə məzənnə riskinə məruz qalır. Xarici valyuta üzrə məzənnə riskləri əsasən gələcək kommersiya əməliyyatlarından, aktiv və öhdəliklər funksional valyutadan fərqli valyutada ifadə edildikdə, uçota alınmış aktiv və öhdəliklərdən yaranır.

Qrupun xarici valyuta məzənnələrinin dəyişməsi zamanı məruz qaldığı risklər aşağıdakı cədvəldə təqdim edilmişdir:

| **Maliyyə aktivləri** | **AZN** | **ABŞ dolları** | **Avro** | **XBH** | **31 dekabr 2024-cü il Cəmi** |
|---|---|---|---|---|---|
| Ticarət və digər debitor borcları | 20,877 | - | - | - | 20,877 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 7,404 | 8 | 27 | - | 7,439 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 308 | - | - | - | 308 |
| **Cəmi maliyyə aktivləri** | 28,589 | 8 | 27 | - | 28,624 |
| **Maliyyə öhdəlikləri** | | | | | |
| Faiz hesablanan kreditlər və borc öhdəlikləri | 11,684 | 125,155 | 91,970 | 13,650 | 242,459 |
| Ticarət və digər kreditor borcları | 153,791 | 105 | 38,001 | - | 191,897 |
| İcarə öhdəlikləri | 1,155 | - | - | - | 1,155 |
| **Cəmi maliyyə öhdəlikləri** | 166,630 | 125,260 | 129,971 | 13,650 | 435,511 |
| **Valyuta mövqeyi** | (138,041) | (125,252) | (129,944) | (13,650) | (406,887) |

| **Maliyyə Aktivləri** | **AZN** | **ABŞ dolları** | **Avro** | **XBH** | **31 dekabr 2023-cü il Cəmi** |
|---|---|---|---|---|---|
| Ticarət və digər debitor borcları | 27,793 | - | - | - | 27,793 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 13,186 | 5 | 19 | - | 13,210 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 1,654 | - | - | - | 1,654 |
| **Cəmi maliyyə aktivləri** | 42,633 | 5 | 19 | - | 42,657 |
| **Maliyyə öhdəlikləri** | | | | | |
| Faiz hesablanan kreditlər və borc öhdəlikləri | 10,895 | 121,155 | 94,767 | 14,792 | 241,609 |
| Ticarət və digər kreditor borcları | 129,563 | 78 | 38,955 | - | 168,596 |
| İcarə öhdəlikləri | 1,438 | - | - | - | 1,438 |

Bütün digər dəyişənlərin sabit qalması şərti ilə, Qrupun vergidən sonra mənfəətinə ABŞ dolları, Avro və XBH üzrə məzənnələrdəki mümkün dəyişikliklərin təsiri üzrə təhlil aşağıdakı cədvəldə göstərilir və Qrupun kapital balansına əhəmiyyətli təsiri mövcud deyildir:

| 31 dekabr 2024-cü il | Məzənnənin dəyişməsi | Vergidən sonrakı mənfəətə təsir |
|---|---|---|
| ABŞ dolları/AZN | 10%/(-10%) | (12,123)/12,123 |
| Avro/AZN | 10%/(-10%) | (13,370)/13,370 |
| XBH/AZN | 10% /(-10%) | (1,479)/1,479 |

Qrupun bütün digər valyutalar üzrə məzənnə dəyişikliklərinə məruz qalması riski əhəmiyyətli deyil.

**Kredit riski və kredit risklərinin konsentrasiyası**

Kredit riski qarşı tərəfin müqavilə üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi təqdirdə Qrupa dəyə biləcək potensial maliyyə zərəridir.

Qrupun kredit riskinə məruz qalan maliyyə alətləri ilk növbədə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ticarət və digər debitor borclarıdır.

Qrupun məruz qaldığı kredit riskinin maksimum dərəcəsi maliyyə aktivlərinin balans dəyəri üzrə əks etdirilir və aşağıdakı cədvəldə aktivlərin kateqoriyalarına görə təsnifləşdirilir:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 7,439 | 13,210 |
| Ticarət və digər debitor borcları | 20,877 | 27,793 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 308 | 1,654 |
| **Cəmi maksimal kredit riski** | **28,624** | **42,657** |

Qrup pul vəsaitlərini Azərbaycan Respublikasında tanınmış maliyyə təşkilatlarında saxlayır. Qrup hesablarını saxladığı bankların statusuna daim nəzarət edir. Qrup özəl sektorda fəaliyyət göstərən müştərilər və əlaqəli olmayan digər üçüncü şəxslərlə ticarət balansından yaranan kredit riskini onların ödəmə qabiliyyətini daimi nəzarət altında saxlamaqla azaldır. Dəyərsizləşmə üzrə tələb iri müştərilər üçün hər hesabat tarixində fərdi əsasla təhlil edilir. Əlavə olaraq, bir çox xırda debitor borcları oxşar qruplara qruplaşdırılıb məcmu şəkildə dəyərsizləşmə üzrə qiymətləndirilir. Hesablama faktiki hesablanmış ilkin məlumatlara əsaslanır. Hesabat tarixində kredit riskinə məruz qalmanın maksimal dərəcəsi maliyyə aktivlərinin hər sinfinin balans dəyəridir. Qrup təminat kimi girov saxlamır. Qrupun rəhbərliyi hesab edir ki, gələcəkdə qaytarılması gözlənilməyən bütün debitor borcları üçün konsolidə edilmiş hazırkı maliyyə hesabatlarında dəyərsizləşmə üzrə ehtiyatlar hesablandığına görə Qrup mövcud debitorlarla bağlı yüksək kredit riskinə məruz qalmır.

**Likvidlik riski**

Likvidlik riski Qrupun ödəmə vaxtı çatmış maliyyə öhdəliklərini yerinə yetirə bilməyəcəyi təqdirdə yaranan riskdir. Likvidliyin idarə edilməsinə Qrupun yanaşması həm adi, həm də qeyri-adi şəraitdə, qəbul edilməyən zərər çəkməyərək və ya Qrupun nüfuzuna ziyan vurmayaraq, öhdəlikləri yerinə yetirməli olanda kifayət qədər likvidliyi təmin etməkdən ibarətdir. Likvidlik riskini idarə edərkən Qrup kifayət qədər pul ehtiyatları və borc öhdəlikləri saxlamalı, proqnozlaşdırılmış və faktiki pul vəsaitlərinin hərəkətinə davamlı olaraq nəzarət etməlidir.

Likvidlik riskinin düzgün idarə olunması funksiyasına kifayət qədər dövriyyə kapitalının saxlanması və bazar mövqelərinin bağlana bilməsi daxildir. 2-ci qeyddə göstərildiyi kimi, Qrup fəaliyyətini davam etdirmək və cari investisiya layihələrini başa çatdırmaq üçün Dövlətdən əhəmiyyətli miqdarda maliyyə vəsaitlərini alma imkanından asılı olaraq qalır.

Qrupun bütün maliyyə öhdəlikləri qeyri-törəmə maliyyə alətlərindən ibarətdir. Aşağıdakı cədvəldə Qrupun maliyyə öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabat tarixindən müqavilədə nəzərdə tutulan ödəmə tarixinədək qalan dövr üzrə müvafiq ödəmə müddətlərinə görə təsnifləşdirilir. Cədvəldə göstərilən məbləğlər müqavilədə nəzərdə tutulan diskont edilməmiş pul vəsaitlərinin hərəkətini əks etdirir.

Maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıda göstərilir:

| **31 dekabr 2024-cü il** | **3 aydan az** | **3-12 ay** | **1-5 il** | **5 ildən çox** | **Cəmi** | **Cəmi balans dəyəri** |
|---|---|---|---|---|---|---|
| Ticarət və digər maliyyə kreditor borcları | 210,028 | 5,251 | - | - | 215,279 | 215,279 |
| Faiz hesablanan kreditlər və borc öhdəlikləri | 1,210 | 15,220 | 159,847 | 93,143 | 269,420 | 242,459 |
| İcarə öhdəlikləri | 240 | 610 | 310 | 45 | 1,205 | 1,155 |
| **Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri** | **211,478** | **21,081** | **160,157** | **93,188** | **485,904** | **458,893** |

**Kapitalın idarə edilməsi**

Kapitalın idarə edilməsində Qrupun əsas məqsədi düzgün investisiya qərarları qəbul etməklə biznes əməliyyatlarının maliyyələşdirilməsi və davam etdirilməsi üçün güclü kapital bazasının təmin edilməsi və dövlətin, investorun və kreditorun işgüzar fəaliyyətinin dəstəklənməsindən ibarətdir.

Qrup 100% Azərbaycan Respublikasının hökumətinə məxsusdur və tikinti layihələrinin həyata keçirilməsi üçün vaxtaşırı olaraq Dövlət investisiyaları şəklində vəsaitlər alır. Kapitala qoyuluşların və əlavələrin dövlətin qərarlarından asılı olduğunu və kapitalın səviyyəsinə dair tələblərin və məhdudiyyətlərin qoyulmadığını nəzərə alsaq Qrup tərəfindən kapitalın idarə edilməsi ilə bağlı xüsusi qaydalar işlənib hazırlanmamışdır.

**Maliyyə alətlərinin ədalətli dəyəri**

Maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri alətin könüllü tərəflər arasında məcburi və ya ləğv etmə satışı olmayan cari əməliyyatlar zamanı mübadilə edilə bildiyi məbləğlə müəyyən edilir. Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Qrup tərəfindən mövcud bazar məlumatlarından (əgər varsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək vacibdir. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

Aşağıdakı cədvəldə Qrupun konsolidə edilmiş maliyyə hesabatlarında əks etdirilmiş maliyyə alətləri balans dəyərləri və ədalətli dəyər sinifləri üzrə müqayisə edilir:

| **31 dekabr 2024-cü il** | **Balans dəyəri** | **Ədalətli dəyər** |
|---|---|---|
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 7,439 | 7,439 |
| Ticarət və digər maliyyə debitor borcları | 20,877 | 20,877 |
| Qısamüddətli ticarət və digər maliyyə kreditor borcları | 215,279 | 215,279 |
| Uzunmüddətli bank kreditləri | 225,647 | 206,520 |
| Qısamüddətli bank kreditləri | 16,812 | 13,540 |
| Uzunmüddətli icarə öhdəlikləri | 1,435 | 1,435 |
| Qısamüddətli icarə öhdəlikləri | | |

| **31 dekabr 2023-cü il** | **Balans dəyəri** | **Ədalətli dəyər** |
|---|---|---|
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 13,210 | 13,210 |
| Ticarət və digər maliyyə debitor borcları | 27,793 | 27,793 |
| Qısamüddətli ticarət və digər maliyyə kreditor borcları | 168,596 | 168,596 |
| Uzunmüddətli bank kreditləri | 219,385 | 195,740 |
| Qısamüddətli bank kreditləri | 22,224 | 19,361 |
| Uzunmüddətli icarə öhdəlikləri | 559 | 559 |
| Qısamüddətli icarə öhdəlikləri | 879 | 879 |

Ədalətli dəyərlər qiymətləndirilərkən, aşağıdakı metod və fərziyyələrdən istifadə edilmişdir:

i. Qısamüddətli maliyyə aktivləri və öhdəlikləri, əsas etibarı ilə bu alətlərin qısamüddətli olduğuna görə, balans dəyərlərini təxmin edir.

ii. Uzunmüddətli borc öhdəlikləri Qrup tərəfindən faiz dərəcələri, ölkə üzrə xüsusi risk amilləri, müştərinin fərdi krediti ödəmə qabiliyyəti və maliyyələşdirilən layihənin risk xüsusiyyətləri kimi parametrlərə əsaslanaraq qiymətləndirilir.

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixinə ədalətli dəyərlə ölçülməmiş maliyyə alətlərinin ədalətli dəyərləri verilmişdir və hər ədalətli dəyər ölçməsinin aşağıda təsnif olunduğu ədalətli dəyər iyerarxiyasındakı səviyyə ilə təhlil edilir:

| | | | Ədalətli dəyərin ölçülməsi | | | |
|---|---|---|---|---|---|---|
| | **Maliyyə alətlərinin təsnifatı** | **Qiymətləndirmə tarixi** | **Aktiv bazarlarda qeydiyyata alınmış qiymət (1-ci Səviyyə)** | **Əhəmiyyətli müşahidə edilən giriş məlumatları (2-ci Səviyyə)** | **Əhəmiyyətli müşahidə edilməyən giriş məlumatları (3-cü Səviyyə)** | **Cəmi** |
| **Ədalətli dəyəri açıqlanan aktivlər** | | | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | Amortizasiya olunmuş maya dəyəri | 31 dekabr 2024-cü il | 7,439 | - | - | 7,439 |
| Ticarət və digər debitor borcları | Amortizasiya olunmuş maya dəyəri | 31 dekabr 2024-cü il | - | - | 20,877 | 20877 |
| **Ədalətli dəyəri açıqlanan öhdəliklər** | | | | | | |
| Qısamüddətli ticarət və digər maliyyə kreditor borcları | Amortizasiya olunmuş maya dəyəri | 31 dekabr 2024-cü il | - | - | 215,279 | 215,279 |
| Uzunmüddətli bank kreditləri | Amortizasiya olunmuş maya dəyəri | 31 dekabr 2024-cü il | - | - | 225,647 | 225,647 |
| Qısamüddətli bank kreditləri | Amortizasiya olunmuş maya dəyəri | 31 dekabr 2024-cü il | - | - | 16,812 | 16,812 |
| Uzunmüddətli icarə öhdəlikləri | Amortizasiya olunmuş maya dəyəri | 31 dekabr 2024-cü il | - | - | 435 | 435 |
| Qısamüddətli icarə öhdəlikləri | Amortizasiya olunmuş maya dəyəri | 31 dekabr 2024-cü il | - | - | 720 | 720 |

Aşağıdakı cədvəldə 31 dekabr 2022-ci il tarixinə ədalətli dəyərlə ölçülməmiş maliyyə alətlərinin ədalətli dəyərləri verilmişdir və hər ədalətli dəyər ölçməsinin aşağıda təsnif olunduğu ədalətli dəyər iyerarxiyasındakı səviyyə ilə təhlil edilir:

| | Maliyyə alətlərinin təsnifatı | Qiymətləndirmə tarixi | Ədalətli dəyərin ölçülməsi<br>Aktiv bazarlarda qeydiyyata alınmış qiymət (1-ci Səviyyə) | Əhəmiyyətli müşahidə edilən giriş məlumatları (2-ci Səviyyə) | Əhəmiyyətli müşahidə edilməyən giriş məlumatları (3-cü Səviyyə) | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Ədalətli dəyəri açıqlanan aktivlər** | | | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | Amortizasiya olunmuş maya dəyəri | 31 dekabr 2023-cü il | 13,210 | - | - | 13,210 |
| Ticarət və digər debitor borcları | Amortizasiya olunmuş maya dəyəri | 31 dekabr 2023-cü il | - | - | 27,793 | 27,793 |
| **Ədalətli dəyəri açıqlanan öhdəliklər** | | | | | | |
| Qısamüddətli ticarət və digər maliyyə kreditor borcları | Amortizasiya olunmuş maya dəyəri | 31 dekabr 2023-cü il | - | - | 168,596 | 168,596 |
| Uzunmüddətli bank kreditləri | Amortizasiya olunmuş maya dəyəri | 31 dekabr 2023-cü il | - | - | 195,740 | 195,740 |
| Qısamüddətli bank kreditləri | Amortizasiya olunmuş maya dəyəri | 31 dekabr 2023-cü il | - | - | 19,361 | 19,361 |
| Uzunmüddətli icarə öhdəlikləri | Amortizasiya olunmuş maya dəyəri | 31 dekabr 2023-cü il | - | - | 559 | 559 |
| Qısamüddətli icarə öhdəlikləri | Amortizasiya olunmuş maya dəyəri | 31 dekabr 2023-cü il | - | - | 879 | 879 |

## 21. ƏMƏLİYYAT GƏLİRLƏRİ VƏ TƏXİRƏ SALINMIŞ GƏLİRLƏR

Satışdan gəlirlər aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il | 31 dekabr 2023-cü il tarixində başa çatmış il |
|---|---|---|
| Su satışı | 208,330 | 203,186 |
| Kanalizasiya xidmətləri | 82,419 | 79,799 |
| Dövlət subsidiyaları | | 13,617 |
| Digər satışlardan gəlirlər | 6,625 | 7,439 |
| **Cəmi satışlardan gəlirlər** | **297,374** | **304,041** |

Digər satışlardan gəlirlər əsasən modul tipli qurğulara xidmət, texniki şərtin verilməsi ilə bağlı gəlirlər, su sayğaclarının satışından, layihələndirmə və digər gəlirlərdən ibarətdir.

Təxirə salınmış gəlirlər 31 dekabr 2024-cü il tarixinə 14 290 min AZN məbləğində su təchizatı və kanalizasiya xidmətləri üçün müştərilərdən alınmış avanslardan ibarət olmuşdur.

## 22. DİGƏR GƏLİR

Digər gəlir aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il | 31 dekabr 2023-cü il tarixində başa çatmış il |
|---|---|---|
| Məhkəmə iddiaları üzrə ehtiyatın geri qaytarılmasından yaranan gəlir | | |
| Əvvəlki illərdə tanınmış ümidsiz debitor borcların bərbasında gəlir | 36,975 | 7,675 |
| İstifadə edilməmiş məzuniyyət üzrə ehtiyatın azalmasından gəlir | 5,118 | |
| Digər gəlirlər | 2,093 | 181 |
| **Cəmi digər gəlir** | **44,186** | **7,856** |

## 23. XƏRCLƏR

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə satışların maya dəyəri, inzibati xərclər, satış və paylama xərcləri və digər əməliyyat xərcləri aşağıdakılardan ibarət olmuşdur:

| 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə (yenidən təqdim edilmiş) | Satışların maya dəyəri | İnzibati xərclər | Satış və paylama xərcləri | Digər əməliyyat xərcləri | Cəmi |
|---|---|---|---|---|---|
| Əməkhaqqı, maaş və sosial müdafiə xərcləri | 58,735 | 17,569 | 96,653 | | 172,957 |
| Torpaq, tikili və avadanlıqlar dəyərsizləşməsi | | | | 170,168 | |
| Enerji xərcləri | 39,590 | 138 | 10,386 | | 50,114 |
| Torpaq, tikili və avadanlıqların köhnəlməsi | 5,521 | 986 | 27,386 | | 33,893 |
| İstifadə edilən xammal və materiallar | 8,535 | 861 | 1,435 | | 10,831 |
| Mənfəət vergisindən başqa vergilər | 4,416 | 217 | 4,529 | | 9,162 |
| Təhlükəsizlik xərcləri | 6,553 | 107 | 1,050 | | 7,710 |
| Təmir və texniki xidmət xərcləri | 1,224 | 71 | 2,202 | | 3,497 |
| İqtisadi sanksiyalar və digər cərimələr | 115 | 4,585 | | | 4,700 |
| Ticarət və digər debitor borclarının dəyərsizləşməsi | | | 681 | | 681 |
| Yanacaq xərcləri | 2,847 | | 1,125 | | 3,972 |
| Bank və yığım xərcləri | 111 | 3,915 | 280 | | 4,306 |
| İşgüzar səfərlərlə bağlı xərclər | 679 | 116 | 570 | | 1,365 |
| Sığorta xərcləri | 1,367 | 28 | 1,754 | | 3,149 |
| Aktivdən istifadə hüququ üzrə köhnəlmə | | | 993 | | 993 |
| Məhkəmə və hüquq xidmətləri | | 2,454 | | | 2,454 |
| Kommunikasiya xərcləri | 58 | 333 | 331 | | 723 |
| İcarə xərcləri | | 11 | 365 | | 376 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 25 | 50 | | | 75 |
| Qeyri-maddi aktivlərin dəyərsizləşməsi | | | | 58 | 58 |
| Digər xərclər | | 6,350 | | | 6,350 |
| **Cəmi xərclər** | **129,776** | **37,791** | **149,740** | **170,226** | **487,553** |

2024-cü il ərzində Qrup Azərbaycan manatının xarici valyutalara qarşı məzənnəsinin dəyişməsindən 51 min AZN məbləğində gəlir (2023-cü il: 952 min AZN zərər) əldə etmişdir.

## 24. MƏNFƏƏT VERGİSİ

Mənfəət vergisi xərci aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il | 31 dekabr 2023-cü il tarixində başa çatmış il |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | (116) | (115) |
| Təxirə salınmış vergidə dəyişiklik | - | - |
| **İl üzrə mənfəət vergisi xərci** | **(116)** | **(115)** |

MHBS və qüvvədə olan yerli vergi qanunvericiliyi arasındakı fərqlər maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün aktivlərin və öhdəliklərin balans dəyəri və onların vergi əsasları arasındakı müvəqqəti fərqlərə səbəb olmuşdur:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **Çıxılan müvəqqəti fərqlər** | | |
| Torpaq, tikili və avadanlıqlar | 5,251,210 | 6,381,263 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 30 | 50 |
| Mal-material ehtiyatları | 1,521 | 3,921 |
| Ticarət və digər debitor borcları | 7,201 | 8,406 |
| Avans ödənişləri | 1,205 | 9,075 |
| Dövlət investisiyaları | 8,250 | 10,360 |
| Faiz hesablanan kreditlər və borc öhdəlikləri | (5,120) | (31,148) |
| Ticarət və digər kreditor borcları | (15,250) | (19,120) |
| İcarə öhdəlikləri | 8 | 16 |
| Təxirə salınmış gəlirlər | 8,113 | 10,113 |
| Ehtiyatlar | (1,018) | (2,021) |
| **Çıxılan müvəqqəti fərqlər** | 5,250,150 | 6,370,915 |
| Qanunla müəyyən edilmiş vergi dərəcəsi üzrə xalis təxirə salınmış vergi aktivləri (20%) | 1,051,230 | 1,274,183 |
| Tanınmamış təxirə salınmış gəlir vergisi aktivləri | (1,051,230) | (1,274,183) |
| **Təxirə salınmış mənfəət vergisi aktivi** | - | - |

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərində başa çatmış illər üzrə vergi xərcləri və Qrupun yerli vergi dərəcəsinə vurulmuş uçot xərcinin nəticələri arasında üzləşdirmə aşağıda təqdim edilir:

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il | 31 dekabr 2023-cü il tarixində başa çatmış il |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəl zərər** | (146,977) | (226,178) |
| Qanunla təyin edilmiş vergi dərəcəsi ilə nəzəri vergi xərci (20%) | 29,395 | 45,236 |
| Uçota alınmamış təxirə salınmış vergi aktivində dəyişiklik | 31,120 | 46,142 |
| Gəlirdən çıxılmayan xərclər | 81,961 | (121,042) |
| Tanınmamış keçirilmiş cari ilin vergi zərəri | (1,120) | (2,781) |
| Vergidən azad olan gəlir | 22,450 | 32,330 |
| **İl üzrə mənfəət vergisi xərci** | (116) | (115) |

Qrupun cari strukturu baxımından Qrupun ayrı-ayrı müəssisələrinin vergi zərərləri və cari vergi aktivləri Qrupun digər müəssisələrinin cari vergi öhdəlikləri və vergiyə cəlb olunan mənfəəti ilə əvəzləşdirilə bilməz. Bu səbəbdən təxirə salınmış vergi aktivi və öhdəlikləri yalnız vergiyə cəlb olunan eyni müəssisəyə aid olduqda qarşılıqlı şəkildə əvəzləşdirilir.

Qrupun bir neçə törəmə müəssisəsinin vergi zərərləri var. Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq onlar gələcək beş illik dövrə keçirilə bilər. Lakin bu zərərlər zərər tarixçəsi olan törəmə müəssisələrə aid olduğundan təxirə salınmış vergi aktivləri tanınmamışdır, çünki bu zərərlər Qrup daxilində vergi tutulan mənfəətin əvəzləşdirilməsi üçün istifadə oluna bilməzlər. Qrup qiymətləndirməni apararaq belə nəticəyə gəlmişdir ki, zərərlə çalışan törəmə müəssisələrinin qalıqları üzrə təxirə salınmış vergi aktivlərinin yaxın gələcəkdə bərpa olunması mümkün deyil. Bu səbəbdən Qrup bu müəssisələr üzrə təxirə salınmış vergi aktivi üzrə tam ehtiyatı tanımışdır.

## 25. ŞƏRTİ ÖHDƏLİKLƏR, TƏƏHHÜDLƏR VƏ ƏMƏLİYYAT RİSKLƏRİ

### Məhkəmə işləri

Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Qrupa qarşı iddialar irəli sürülür. Qrupun rəhbərliyi öz təxminlərinə və daxili peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı müvafiq olaraq konsolidə edilmiş hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün yaradılmış ehtiyatlardan başqa heç bir əhəmiyyətli zərər olmayacaqdır.

### Vergi qanunvericiliyi

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Qrupun əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq səlahiyyətli orqanlar tərəfindən etiraz edilə bilər. Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

### Ətraf mühitin mühafizəsi ilə bağlı məsələlər

Hazırda Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi haqqında qanunvericilik təkmilləşdirilir və ona əməl olunması ilə bağlı hökumət orqanlarının mövqeyinə yenidən baxılır. Qrup ətraf mühitin mühafizəsi ilə bağlı öhdəliklərini mütəmadi olaraq qiymətləndirir. Öhdəliklər müəyyən edildikcə dərhal uçota alınır. Mövcud qanunvericiliyin və normativ aktların dəyişməsi nəticəsində yarana bilən, eləcə də məhkəmə praktikası nəticəsində kifayət qədər dəqiqliklə qiymətləndirilə bilməyən potensial öhdəliklər əhəmiyyətli ola bilər. Rəhbərlik hesab edir ki, ətraf mühitin mühafizəsi haqqında qüvvədə olan qanunvericiliyə əməl olunması üzrə mövcud nəzarət sistemi şəraitində ətraf mühitə zərər vurulması ilə bağlı öhdəliklər mövcud deyil.

## 26. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

31 dekabr 2024-cü il tarixindən sonra baş vermiş əhəmiyyətli hadisələr aşağıdakı kimi olmuşdur:

"Azərbaycan Respublikasının 2025-ci il Dövlət Büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (İnvestisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsünün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinin 13 iyun 2025-ci il tarixli 626 saylı Sərəncamı ilə Qrupa dövlət büdcəsindən Dəniz suyunun duzsuzlaşdırılması ilə əlaqədar məsləhətçi şirkətin cəlb olunması üçün 1 020.00 min manat vəsait ayrılmışdır.